RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 111 (8990) CÜMƏ, 27 may 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az






# İlham Əliyev işğaldan azad edilmiş ərazilərə yeni həyat bəxş edir

→ 2-3-4

- Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva mayın 26-da Füzuli, Cəbrayıl və Zəngilan rayonlarına səfər ediblər.
- Dövlət başçısı və birinci xanım Füzuli rayonunda Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun tikintisi ilə tanış olub, Cəbrayıl rayonunda Horadiz-Ağbənd dəmir yolu xəttinin Soltanlı stansiyasının və "Azərenerji" ASC-nin 330/110 kV-luq "Cəbrayıl" enerji qovşağının təməlqoyma mərasimində iştirak ediblər.
- Zəngilan rayonunda olan Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Zəngilan Beynəlxalq Hava Limanının və "Paşa Holding" MMC-nin dəstəyi ilə Heydər Əliyev Fondu tərəfindən inşa olunan Zəngilan məscidinin tikinti işləri ilə tanış olub, İşğal və Zəfər muzeyləri kompleksinin təməlqoyma mərasimində iştirak ediblər.
- Daha sonra Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya Zəngilan şəhərinin Baş planı təqdim olunub.

## Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli İlham Heydər oğlu!

Azərbaycanın milli bayramı - Müstəqillik Günü münasibətilə səmimi təbriklərimi qəbul edin.

Ölkənizin sosial-iqtisadi inkişafda qazandığı uğurlar hamı tərəfindən qəbul edilib. Azərbaycan dünya arenasında haqlı nüfuz qazanıb, beynəlxalq gündəliyin bir çox aktual məsələlərinin həllində mühüm rol oynayır.

Rusiya-Azərbaycan münasibətlərinin yüksək səviyyəsini məmnunluqla qeyd edirik. Fevral ayında imzalanmış Müttəfiqlik Qarşılıqlı Fəaliyyəti haqqında Bəyannamə, heç şübhəsiz, bütün sahələrdə ikitərəfli əlaqələrin keyfiyyətcə yüksəlməsinə şərait yaradacaq. Bu, dost xalqlarımızın mənafelərinə tam cavab verir.

Hörmətli İlham Heydər oğlu, Sizə səmimi-qəlbdən möhkəm cansağlığı və uğurlar, Azərbaycanın bütün vətəndaşlarına xoşbəxtlik və firavanlıq arzu edirəm.

*Hörmətlə,*

***Vladimir PUTİN,***
***Rusiya Federasiyasının Prezidenti***

## Trans-Xəzər Nəqliyyat Dəhlizinə maraq artıb

### İndi dünya alternativ kimi bu marşrutu seçir

Bütün dünyada ticarətin intensivliyini təmin edən marşrutlara üstünlük verilməsi təsadüfi deyil. Çünki yüklərin tez, təhlükəsiz və ucuz çatdırılması yük göndərən və qəbul edən tərəflərin marağında olan əsas məsələdir.

Hazırda dünya ticarətinin 80 faizi okean və dənizlər üzərindən həyata keçirilir. Yüklərin gəmi ilə uzaq məsafələrə daşınması iki mühüm cəhətə görə ticarət tərəfdaşları üçün sərfəli deyil. Belə ki, su marşrutu ilə yüklər alıcılara gec çatır, üstəlik, xərclər dəmir yolu ilə daşınmadan baha olur. Ticarət tərəfdaşları qeyd edilən iki mühüm səbəbə görə alternativ yollara üstünlük verirlər.

Su yolu ilə yüklərin daşınması həm də təhlükəlidir. Süveyş kanalında baş verən gəmi qəzası zamanı bunun şahidi olduq.

→ 10

## İnnovativ gələcəyə aparan "TEKNOFEST"

Dünən Azərbaycanda "TEKNOFEST" festivalına start verildi. İlk dəfədir ki, Azərbaycanda keçirilən bu festival mayın 29-na qədər davam edəcək.

2018-ci ildən Türkiyənin Sənaye və Texnologiya Nazirliyinin və Selçuk Bayrakdarın rəhbərlik etdiyi "Türkiye Teknoloji Takımı" - T3 Vəqfinin təşkilatçılığı ilə keçirilən festivala Azərbaycan ikinci dəfədir ki, qatılır və bu dəfə ev sahibi qismində…

Festival çərçivəsində Azərbaycan startapları da daxil olmaqla xarici yeniliklərin təqdim olunacağı "Take Off Baku" sammitinin keçirilməsində əsas məqsəd regionda effektiv sahibkarlıq mühiti yaratmaq, yerli startapların inkişafını dəstəkləmək və ekosistemin əsas oyunçuları arasında davamlı əməkdaşlığı təmin etməkdir. Sammit Azərbaycanı regionun yeni və cəlbedici innovativ məkanı kimi beynəlxalq ictimaiyyətə daha yaxından tanıdacaq.

→ 9

## Paşinyan keçmiş hərbi xuntanın əsl məqsədini açıqladı

### Müxalifət seçkilərdə onlara dəstək olmayan xalqdan intiqam alır

Ermənistanda siyasi qarşıdurmanın daha da dərinləşməsi, müxalifətlə hakimiyyət arasında ziddiyyətlərin kəskinləşməsi müşahidə olunur. Baş nazir Nikol Paşinyanın istefası tələbi ilə müxalifətin müddətsiz etiraz aksiyaları davam edir, siyasi vəziyyət gərgin olaraq qalır.

Bir aydır davam edən vətəndaş itaətsizliyi aksiyaları artıq rəsmi İrəvanı ciddi şəkildə narahat edir. Müxalifətin "Müqavimət" hərəkatının üzvləri baş nazir Nikol Paşinyanın istefası tələbi ilə daha bir yürüş keçiriblər.

Müxalifətin budəfəki aksiyasına 44 günlük müharibə zamanı ölmüş hərbçilərin yaxınları da qoşulublar. Baş nazirin istefasını tələb edən etirazçılarla polis arasında qarşıdurma yaşanıb.

→ 7




# 9 müəssisə, 50 milyon manat investisiya

→ 6

# İlham Əliyev işğaldan azad edilmiş

## Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun tikintisi ilə tanışlıq





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 26-da Füzuli rayonuna səfər ediblər.**

AZƏRTAC xəbər verir ki, dövlət başçısı və birinci xanım səfər çərçivəsində Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun (Zəngəzur dəhlizi) tikintisi ilə tanış olublar.

Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya məlumat verildi ki, Azərbaycan və Türkiyə prezidentləri tərəfindən təməli qoyulan və ümumi uzunluğu 123,6 kilometr olan bu yolun tikintisi sürətlə davam etdirilir. Başlanğıcını Füzuli rayonunun Əhmədbəyli kəndindən götürən bu yol birinci texniki dərəcəyə uyğun inşa edilir. Yolun ilk 77 kilometrlik hissəsi altı, qalan 46,6 kilometrlik hissəsi isə dörd hərəkət zolaqlı olacaq. Yol boyunca üç avtomobil tuneli inşa edilir. Tunellərdən birində qazma işləri artıq yekunlaşıb, hazırda beton işləri icra olunur. Digər iki tuneldə isə qazma işləri davam etdirilir. Həmçinin bu yolun üzərində 15 avtomobil körpüsü, 5 yolötürücü və 54 yeraltı keçidin inşası nəzərdə tutulub. Hazırda 14 körpü, 3 yolötürücü və 38 yeraltı keçidin tikintisi aparılır.



Qeyd edək ki, hazırda yolun ilk 110 kilometrlik hissəsində torpaq işləri icra edilir. Yolun genişləndirilərək profilə salınması, birinci texniki dərəcəyə uyğun yeni torpaq yatağının inşası və paralel olaraq asfalt örtüyünün salınması həyata keçirilir. Tikinti işlərinin 2024-cü ildə başa çatdırılması nəzərdə tutulur.

Bu yol Hacıqabul-Horadiz-Ağbənd-Zəngəzur dəhlizi magistral avtomobil yolunun bir hissəsi olmaqla, Zəngilanı Azərbaycanın digər rayonları və Naxçıvan Muxtar Respublikası ilə birləşdirmək baxımından çox böyük əhəmiyyətə malikdir.

## Horadiz-Ağbənd dəmir yolu xəttinin Cəbrayıl rayonu ərazisində Soltanlı stansiyasının təməli qoyulub





**Mayın 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Cəbrayıl rayonunda da səfərdə olublar.**

AZƏRTAC xəbər verir ki, dövlət başçısı və birinci xanım Horadiz-Ağbənd dəmir yolu xəttinin Cəbrayıl rayonu ərazisində Soltanlı stansiyasının təməlqoyma mərasimində iştirak ediblər.

Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya dəmir yolu və stansiya barədə məlumat verildi.

Bildirildi ki, təkxətli dəmir yolunun uzunluğu 110,4 kilometrdir. Layihəyə əsasən yol boyunca 9 stansiyanın (Horadiz, Mərcanlı, Mahmudlu, Soltanlı, Qumlaq, Həkəri, Mincivan, Bartaz,





Ağbənd), 3 tunelin, 41 körpünün, 7 yolötürücünün, 300-ə yaxın süni mühəndis qurğusunun, rabitə və işarəvermə sisteminin, elektrik təsərrüfatının tikintisi planlaşdırılır. Yol boyunca 85 kilometr ərazi minalardan təmizlənib və proses davam edir. Dəmir yolu xəttinin yan yollarla birlikdə 60 kilometrlik hissəsi tamamlanıb. Bu məsafədə yük qatarları hərəkət edir. Tikinti işləri Türkiyənin "Kalyon RSY İnşaat Adi Ortaklığı Ticari İşletmesi" şirkəti tərəfindən həyata keçirilir.

Prezident İlham Əliyev Soltanlı stansiyasının təməlini qoydu.

Bildirildi ki, stansiyada sərnişinlər üçün gözləmə zalı, rabitə, işarəvermə və digər xidməti otaqlar yaradılacaq.

Qeyd edək ki, Horadiz-Ağbənd dəmir yolu xəttinin təməli 2021-ci il fevralın 14-də Prezident İlham Əliyev tərəfindən qoyulub. Layihənin 2023-cü ilin sonunadək yekunlaşdırılması nəzərdə tutulur. Azərbaycan Prezidentinin sərəncamları ilə yolun inşasına 312 milyon 700 min manat vəsait ayrılıb.

# ərazilərə yeni həyat bəxş edir

## "Azərenerji" ASC-nin 330/110 kilovoltluq "Cəbrayıl" enerji qovşağının təməli qoyulub









**Mayın 26-da "Azərenerji" ASC-nin 330/110 kilovoltluq "Cəbrayıl" enerji qovşağının təməlqoyma mərasimi olub.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mərasimdə iştirak ediblər.

Dövlət başçısına və birinci xanıma məlumat verildi ki, Cəbrayıl-Naxçıvan-Ağrı (Türkiyə) yarımstansiyalarına, oradan isə Türkiyə enerji sistemi vasitəsilə Avropa enerji bazarlarına əlavə və daha əlverişli çıxış əldə etmək, 1000 meqavat yükötürmə qabiliyyətinə malik olmaqla ixrac imkanlarını artırmaq, uzun illərdən sonra Naxçıvan Muxtar Respublikasını Azərbaycanın ümumi enerjisisteminə qoşmaq, "Xudafərin" və "Qız Qalası" Su Elektrik stansiyalarının, o cümlədən "BP Cəbrayıl" Günəş Elektrik Stansiyasının enerjisistemə inteqrasiyasını həyata keçirmək üçün 330 kilovoltluq "Cəbrayıl" yarımstansiyasının tikilməsi olduqca əhəmiyyətli hadisədir.

Bir çox dövlətlərin marağında olduğu və beynəlxalq əhəmiyyət kəsb edən Azərbaycan-Türkiyə-Avropa ölkələrarası layihənin həyata keçirilməsi üçün üçmərhələli planlaşdırma aparılıb. Bunun üçün birinci mərhələdə istismar müddəti başa çatan və işğaldan azad edilən ərazilərə ən yaxın məsafədə yerləşən 330 kilovoltluq "Ağcabədi" və "İmişli" yarımstansiyaları genişləndirilərək tamamilə yenidən qurulacaq.

Prezident İlham Əliyev "Cəbrayıl" enerji qovşağının təməlini qoydu.

Bildirildi ki, "Ağcabədi" yarımstansiyasından 132, "İmişli" yarımstansiyasından isə 130 kilometr məsafədə Cəbrayıla yüksəkgərginlikli 330 kilovoltluq ötürmə xətti çəkiləcək. Ən əsası isə Cəbrayılda 330 kilovoltluq qovşaq yarımstansiyası tikiləcək. "Cəbrayıl" enerji qovşağının inşası nəticəsində Qarabağ və Şərqi Zəngəzurun yeni yaradılmış ötürücü elektrik şəbəkəsinin etibarlılığı və dayanıqlılığı artırılacaq. İkinci mərhələdə Naxçıvanın ölkənin əsas enerjisistemi ilə əlaqələndirilməsi üçün "Cəbrayıl" qovşaq yarımstansiyasından Zəngəzur dəhlizini keçməklə muxtar respublikanın Şahtaxtı kəndinə 255 kilometr məsafədə ikidövrəli olmaqla 330 kilovoltluq ötürmə xətti çəkiləcək və 330 kilovoltluq "Şahtaxtı" yarımstansiyası tikiləcək. Üçüncü mərhələdə isə Azərbaycan, Naxçıvan, Türkiyə və Avropa enerji qovşağının yaradılması üçün Naxçıvanın Türkiyəyə yaxın ərazisində 330 kilovoltu 400 kilovolta keçirmək üçün Avropa enerji standartlarına uyğun əlavə çevirici yarımstansiya inşa ediləcək və Naxçıvandan Türkiyəyə 230 kilometr məsafədə ikidövrəli 400 kilovoltluq elektrik verilişi xətti çəkiləcək.

Diqqətə çatdırıldı ki, "Cəbrayıl" yarımstansiyasının rəqəmsal idarəetmə sistemi yaradılacaq. Yarımstansiyada 330 və 110 kilovoltluq açıq, 10 kilovoltluq qapalı paylayıcı qurğular və müasir idarəetmə mərkəzi inşa olunacaq. Mövcud layihələrin yarımstansiyaya inteqrasiyası ilə bərabər, gələcəkdə burada genişlənmə imkanları nəzərə alınmaqla əlavə əsas və köməkçi qurğuların yerləşməsi də nəzərə alınacaq.

Qeyd edək ki, "Cəbrayıl" enerji qovşağı beynəlxalq enerji dəhlizinin yaradılması sahəsində ölkəmizin əhəmiyyətinin bariz nümunəsidir.

## Zəngilan Beynəlxalq Hava Limanında aparılan tikinti işləri ilə tanışlıq






**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 26-da Zəngilan rayonuna da səfər ediblər.**





AZƏRTAC xəbər verir ki, dövlət başçısı və birinci xanım Zəngilan Beynəlxalq Hava Limanında aparılan tikinti işlərinin gedişi ilə tanış olublar.

Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya hava limanında görülən işlər barədə məlumat verildi.

Bildirildi ki, perronda torpaq işləri tamamlanıb, uçuş-enmə zolağında asfalt-beton işləri davam edir. Zolağın uzunluğu 3000 metr, eni isə 60 metr olacaq. Bu hava limanı bütün növ təyyarələri, o cümlədən ağır yük təyyarələrini qəbul edəcək.

Aeroportun hava hərəkəti qülləsinin tikintisinin iyulda tamamlanması planlaşdırılır. Avqustun sonunda isə terminal binasında işlərin başa çatdırılması nəzərdə tutulur. Beynəlxalq standartlara uyğun inşa edilən terminal binası saatda 200 sərnişinə xidmət edəcək. Terminal daxilində VIP zallar, kafelər, tibb xidməti və ofis otaqları yaradılacaq. Avadanlıq və materiallar İtaliya, Almaniya və Türkiyədən gətirilib.

Qeyd edək ki, Zəngilan Beynəlxalq Hava Limanı Qarabağın mühüm nəqliyyat qovşağına çevrilməsini şərtləndirən əsas amillərdəndir. Həmçinin bu hava limanı Zəngəzur dəhlizinin hava nəqliyyatı infrastrukturu ilə gücləndirilməsi baxımından strateji əhəmiyyət kəsb edir. Görülən işlərin sürəti buranın beynəlxalq nəqliyyat-logistika habına çevriləcəyi günü yaxınlaşdırmaqdadır.

Onu da deyək ki, işğaldan azad olunan ərazilərdə Füzulidəki hava limanından sonra beynəlxalq statuslu daha iki aeroport tikilməkdədir. Onlardan biri də Zəngilan hava limanıdır. Digəri isə Laçın rayonunun ərazisində inşa olunur.

# İlham Əliyev işğaldan azad edilmiş ərazilərə yeni həyat bəxş edir

## Zəngilan məscidinin tikintisi ilə tanışlıq olub, İşğal və Zəfər muzeylərinin təməli qoyulub, şəhərin Baş planı təqdim edilib





### Birinci vitse-prezident Mehriban Əliyeva Zəngilan rayonuna səfərlə bağlı paylaşım edib



Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi "İnstaqram" səhifəsində Zəngilan rayonuna səfərlə bağlı paylaşım edib.

AZƏRTAC paylaşımı təqdim edir: "Yolumuz Zəngilanadır. Allah bütün şəhidlərimizə rəhmət eləsin!"

❖ ❖ ❖

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi "İnstaqram" səhifəsində Zəngilan rayonundan paylaşım edib.

AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir: "İşğaldan azad olunmuş Zəngilan. Arzular gerçəkləşir".












**Mayın 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva "Paşa Holding" MMC-nin dəstəyi ilə Heydər Əliyev Fondu tərəfindən inşa olunan Zəngilan məscidində tikinti işlərinin gedişi ilə tanış olublar.**

AZƏRTAC xəbər verir ki, Prezidentin köməkçisi Anar Ələkbərov görülən işlər barədə dövlət başçısına və birinci xanıma məlumat verdi.

Qeyd edək ki, Ermənistanın torpaqlarımızı işğal altında saxladığı otuz il ərzində digər ərazilərimizdə olduğu kimi, Zəngilan rayonunda da tarixi, dini, mədəniyyət abidələrimiz erməni vandalizminə məruz qalıb, dağıdılıb, təhqir edilib. İşğal dövründə Zəngilan şəhərindəki məsciddən də tövlə kimi istifadə olunub.

Rayonun işğaldan azad edilməsi nəticəsində buradakı tarixi, memarlıq abidələri də erməni əsarətindən qurtuldu. Otuz ilə yaxın işğal dövründə dağıdılan, təhqir olunan dini abidələrimizin, məscidlərimizin yenidən həyata qaytarılması prosesində Heydər Əliyev Fondu müstəsna xidmət göstərir. Qarabağdakı dini abidələrin, məscidlərin bərpası işləri sürətlə davam etdirilir.

Zəngilan məscidinin bərpasının təməl daşı dövlət başçısı İlham Əliyevin, birinci xanım Mehriban Əliyevanın və qızları Leyla Əliyevanın iştirakı ilə ötən il aprelin 26-da qoyulub, bərpa işləri fasiləsiz həyata keçirilir.

❖ ❖ ❖

Sonra dövlət başçısı və birinci xanım İşğal və Zəfər muzeyləri kompleksinin təməlqoyma mərasimində iştirak etdilər.

Məlumat verildi ki, Zəngilan İşğal və Zəfər muzeyləri kompleksi layihəsinin əsas məqsədi müharibənin ətraf mühitə dağıdıcı təsirləri barədə məlumatlılığı artırmaqdır. Layihə hazırlanarkən dayanıqlılığın müxtəlif aspektləri həm landşaft, həm də bina dizaynı üçün nəzərə alınıb və BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaq hədəflənib.

Zəngilan İşğal və Zəfər muzeyləri kompleksi İşğal Muzeyi, Zəfər Muzeyi və dağıntıları əks etdirən Memorial Parkdan ibarət olacaq.

Dövlət başçısı və birinci xanım İşğal və Zəfər muzeyləri kompleksinin təməlini qoydular.

İşğal Muzeyi düşmənin işğalı zamanı şəhərin və bölgənin məruz qaldığı vandallığın əyani surətdə nümayiş etdirilməsi məqsədi daşıyır. Zəngilan şəhərinin müəyyən hissəsinin dağıdılmış vəziyyətdə qalması və Ermənistanın işğalçılıq siyasətinin ümumi mənzərəsini əks etdirən açıq səma altında muzey kimi nümayiş etdirilməsi nəzərdə tutulur. İşğal Muzeyində ətraf mühitə vurulan ekoloji zərərlər, xüsusilə Zəngilan şəhərində ətraf mühitə, bioloji müxtəlifliyə, meşələrə, yeraltı və yerüstü təbii ehtiyatlara ciddi ziyan vurmaq məqsədilə törədilən ekoloji terror aktları barədə məlumatlar diqqətə çatdırılacaq. Muzeyin ekspozisiyası müxtəlif audio və vizual texnologiyalardan istifadə etməklə təşkil olunacaq. Muzey binasının şüşədən hazırlanacaq fasadının üzərindəki təsvirlər və naxışlar çinar yarpağına bənzəyəcək ki, bu da Zəngilan şəhərinin təbiətlə sıx əlaqəsini tərənnüm edəcək.

Zəngilan Zəfər Muzeyi Azərbaycan xalqının və şanlı ordumuzun 44 günlük Vətən müharibəsi zamanı nümayiş etdirdiyi əzmkarlıq, rəşadət və peşəkarlığı əbədiləşdirən kompleks, həmçinin qazanılmış qələbəni müasir təqdimat metodları ilə insanlara çatdıran məkan olacaq. Zəfər Muzeyinin binasının çinar meşəsini xatırladacaq fasadı dünyada sahəsinə görə ikinci ən böyük təbii çinar meşəsi olan Zəngilan meşələrinə həsr olunacaq. Muzeyin foyesi vizual texnologiyalar vasitəsilə Zəfərə həsr olunan məlumatları nümayiş etdirmək üçün sərgi məkanı kimi istifadə olunacaq. Həmçinin muzeydə 80 tamaşaçı yeri olan 4D kinoteatr da yaradılacaq. Bu muzeyin inşasında əsas məqsədlərdən biri də məhz gələcəkdə burada "Zangilan Earth Film Festival"ın təşkil olunması və Zəngilanda törədilmiş ekoloji terroru beynəlxalq ictimaiyyətin diqqətinə çatdırmaqdır.

Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsini əbədiləşdirmək məqsədilə Zəfər Muzeyi binasının yanında qəhrəmanlarımızın adlarının qeyd olunduğu beton hasar formasında "Memorial lövhə" yaradılacaq.

Hər iki muzey Azərbaycan xalqının iftixar və qürur mənbəyinə çevrilən Şanlı Ordumuzun 44 günlük Vətən müharibəsində qazandığı möhtəşəm qələbəni indiki və gələcək nəsillərin yaddaşına həkk edən, beynəlxalq hüquqa uyğun olaraq ərazi bütövlüyünü bərpa etməyə nail olan Azərbaycanın haqq səsini dünyaya çatdıran təşviqat və informasiya mərkəzi olacaq.

Zəngilanla bağlı tarixi faktların yaradıcı üsulla dağıntılar üzərində əks etdirilməsi üçün xüsusi layihə həyata keçiriləcək. Dünyanın müxtəlif ölkələrindən cəlb olunacaq rəssamlar dağıntılar üzərində fərqli divar rəsmləri ("Street art") yaradacaqlar. Beləliklə, 10 min 500 kvadratmetr sahəni əhatə edən dağıntılardan ibarət Memorial Park boyunca açıq səma altında sərgi təşkil olunacaq.

❖ ❖ ❖

Daha sonra Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya Zəngilan şəhərinin Baş planı təqdim olundu.

Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev məlumat verdi ki, Baş plan komitənin sifarişi əsasında bu sahədə böyük təcrübəyə malik nüfuzlu beynəlxalq şəhərsalma qrupu - İsveçrənin "sa_partners" şirkəti tərəfindən yerli mütəxəssislərin iştirakı ilə hazırlanıb. Layihəyə əsasən, Zəngilan şəhəri beynəlxalq əhəmiyyətli Zəngəzur nəqliyyat dəhlizi ilə sıx əlaqələri olan strateji əhəmiyyətli yaşayış məntəqəsi kimi inkişaf etdiriləcək. Belə ki, Araz vadisinin yaxınlığında, həm Zəngəzur nəqliyyat dəhlizindən, həm də Zəngilan Beynəlxalq Hava Limanından cəmi 10 kilometr məsafədə yenidən qurulacaq şəhər yaradılacaq əhəmiyyətli nəqliyyat şəbəkəsini müasir infrastrukturu ilə tamamlayacaq. Şəhərin strateji əhəmiyyəti nəzərə alınaraq Baş planda Zəngilanın beynəlxalq nəqliyyat dəhlizi ilə əlaqəsi olan logistika, turizm və ticarət mərkəzi, bərpaolunan enerji məkanı kimi inkişaf etdirilməsi nəzərdə tutulur.

Diqqətə çatdırıldı ki, Baş planın konseptual əsasını "rahat yaşayış", "yaşıl və təmiz", "mütərəqqi innovasiyalar" kimi şəhər yanaşmaları təşkil edir. Gələcəyin şəhəri mənzərəli landşaftı, çayətrafı ictimai məkanları, sağlam ətraf mühiti sayəsində sakinləri və qonaqları üçün rahat həyat şəraiti ilə seçiləcək. Şəhərin yerləşdiyi Oxçuçay çayının sahilində geniş parkın, həmçinin dağüstü parkın və daxili yaşıl dəhlizlərin salınması əhalinin asudə vaxtının səmərəli və maraqlı təşkili ilə yanaşı, təmiz ekoloji mühitin formalaşmasına imkan yaradacaq. Burada "ağıllı şəhər" yanaşmasının tətbiqi, müasir texnologiyalardan və bərpaolunan enerji mənbələrindən geniş istifadə edilməsi isə Zəngilanın yaşayış üçün əlverişliliyini artıracaq, nəqliyyat sistemini ekoloji təmiz, müasir və davamlı edəcək, onu iqtisadiyyatın inkişafı baxımından region səviyyəsində nümunəvi şəhərə çevirəcək.

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva "sa_partners" şirkətinin nümayəndələri ilə söhbət etdilər.

**Prezident İlham Əliyev dedi:**

- Salam. Sizi görməyimə şadam. Təbrik edirəm. Bilirsiniz ki, çoxlu ideyalar, təkliflər olur. Lakin yekdil qərarla sizin konsepsiya ən yaxşı kimi qəbul olundu. Mən belə hesab edirəm ki, o, təbiətə yaxşı inteqrasiya edilib. Xüsusilə, burada, Zəngilanda biz şəhəri təbiətə inteqrasiya etməliyik və onu park şəhərinə çevirməliyik. Küçə boyu gəzərkən insanlar sanki özlərini parkda hesab etsinlər. Bəli, parkda, təbiətdə. Yaşayış binalarının konsepsiyası da yüksəkmərtəbəli olmayan, şəffaf, çox gözəl olmalıdır.

**Şirkətin nümayəndəsi:**

- Əvvəla, təşəkkürümüzü bildirməliyəm. Biz çox şadıq ki, burada - Azərbaycanın çox gözəl guşəsindəyik. Bura ən yaxşı yerlərdən biridir. Biz buraya öz töhfəmizi verdiyimizə görə fərəhlənirik. Hesab edirəm ki, eyni konsepsiya ölkənizin digər əraziləri üçün örnək olmalıdır.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Oxçuçayın mənzərəsini seyr etdilər.

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident!

Milli bayramınız - Müstəqillik Günü münasibətilə Çin Xalq Respublikası hökuməti və xalqı adından, şəxsən öz adımdan Sizə və Sizin simanızda dost Azərbaycan xalqına səmimi təbriklərimi və ən xoş arzularımı çatdırmaqdan şərəf duyuram.

Hazırda Çin-Azərbaycan münasibətləri sağlam və sabit şəkildə inkişaf edir. İki ölkə arasında qarşılıqlı siyasi etimad dərinləşir, "Bir kəmər, bir yol" müştərək layihəsi üzrə əməkdaşlıq fəal inkişaf edir və beynəlxalq aləmdə qarşılıqlı fəaliyyət getdikcə möhkəmlənir. Mən Çin-Azərbaycan münasibətlərinin inkişafına xüsusi əhəmiyyət verirəm. Diplomatik münasibətlərin qurulmasının 30 illiyi ilə əlaqədar ikitərəfli dostluq və əməkdaşlıq əlaqələrinin ölkələrimizin və xalqlarımızın rifahı naminə yeni səviyyədə daha da inkişaf etdirilməsi üçün Sizinlə birgə səylər göstərməyə hazıram.

Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Azərbaycana güc və qüdrət, onun xalqına isə xoşbəxtlik və firavanlıq arzulayıram.

*Hörmətlə,*

***Si CİNPİN,***
***Çin Xalq Respublikasının Sədri***

Cənab Prezident!

Ölkənizin milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə və Azərbaycan xalqına həm öz adımdan, həm də həmvətənlərim adından səmimi təbriklərimi yetirirəm.

Ölkələrimizin diplomatik əlaqələri otuz il əvvəl, 1992-ci il fevralın 20-də qurulub.

Ölkələrimiz arasında münasibətlər son illərdə konstruktiv şəkildə və artan qarşılıqlı etimad əsasında inkişaf etmişdir. Sizi əmin edirəm ki, Almaniya dostluq əlaqələrimizin bundan sonra da genişləndirilməsinə böyük maraq göstərir. Bura həm də Azərbaycanla insan hüquqlarına dair aparılan dialoq və ölkələrimizin vətəndaş cəmiyyətləri arasında mübadilənin dəstəklənməsi daxildir.

Azərbaycan Almaniyanın Cənubi Qafqazda ən mühüm iqtisadi və ticarət tərəfdaşıdır və ölkəmizin enerji təhlükəsizliyində, enerji təchizatının şaxələndirilməsində mühüm rol oynayır. Biz xüsusilə bu sahədə əlaqələri gələcəkdə məmnuniyyətlə gücləndirmək istəyirik.

Sizə və ailənizə cansağlığı, firavanlıq, ölkənizin vətəndaşlarına sülh və əmin-amanlıq şəraitində uğurlu gələcək diləyirəm.

***Frank-Valter ŞTAYNMAYER,***
***Almaniya Federativ Respublikasının Prezidenti***

Cənab Prezident!

Milli bayramınız - Müstəqillik Günü münasibətilə Sizə və dost Azərbaycan xalqına İtaliya Respublikası adından və şəxsən öz adımdan ən səmimi təbriklərimi çatdırıram.

Bir neçə gün əvvəl Bakı ilə Roma arasında diplomatik münasibətlərin qurulmasının 30 illik yubileyi münasibətilə göndərdiyiniz təbrik məktubuna görə zati-alinizə təşəkkürümü bildirir, bu münasibətlə mən də Sizə ən səmimi təbriklərimi yetirirəm.

Çoxsaylı görüşlərimiz, xüsusilə də qarşılıqlı dövlət səfərlərimiz zamanı qeyd etdiyimiz kimi, birgə maraq kəsb edən bütün sahələrdə ikitərəfli münasibətlərimizdə əldə olunan bu yüksək səviyyəni vurğulamaqdan xüsusi məmnunluq duyuram.

İkitərəfli tərəfdaşlığımız iqtisadi əməkdaşlığın inkişafından başlamış, siyasi, mədəni və sosial sahələri də əhatə etmişdir. Bu müsbət təcrübədən çıxış edərək əminliklə deyə bilərəm ki, xalqlarımızı birləşdirən səmimi dostluğun gələcək illərdə daha da dərinləşməsi üçün yeni imkanlar yaranacaqdır.

Bu xüsusda, İtaliya ölkənizlə Avropa İttifaqı arasında tərəfdaşlıq sazişinin imzalanmasına yönəlmiş danışıqlara bundan sonra da tam dəstəyini verəcəkdir.

Sentyabr ayında Sizinlə yenidən Romada görüşməkdən məmnun olacağımı bildirirəm.

Bu əlamətdar tarix - milli bayramınız münasibətilə bir daha Sizə, nəcib xanımınıza və bütün həmvətənlərinizə ən xoş arzularımı çatdırıram.

*Dərin hörmətlə,*

***Sercio MATTARELLA,***
***İtaliya Respublikasının Prezidenti***

Hörmətli cənab Prezident!

Azərbaycanın milli bayramı - Müstəqillik Günü münasibətilə zati-alinizə səmimi təbriklərimi və ən xoş arzularımı çatdırır, Sizə möhkəm cansağlığı, xoşbəxtlik, Azərbaycan xalqına isə firavanlıq diləyirəm.

*Dərin hörmətlə,*

***XVI Karl QUSTAV,***
***İsveçin Kralı***

Zati-aliləri!

Ölkənizin milli bayramının - Müstəqillik Gününün yaratdığı bu xoş fürsətdən istifadə edərək, Sizə təbriklərimi və Azərbaycan xalqının firavan gələcəyinə dair ən xoş arzularımı çatdırıram.

*Hörmətlə,*

***Villem-ALEKSANDR,***
***Niderlandın Kralı***

Hörmətli cənab Prezident!

Azərbaycanın Müstəqillik Günü münasibətilə Serbiya Respublikasının vətəndaşları adından və şəxsən öz adımdan Sizə səmimi təbriklərimi çatdırır, ölkənizə tərəqqi, xalqınıza yüksək rifah diləyirəm.

Əminəm ki, biz qarşıdakı aylarda bütün səviyyələrdə dialoqu davam etdirəcəyik və Sizin Serbiya Respublikasına həyata keçiriləcək səfəriniz ikitərəfli əməkdaşlığımızın inkişafı baxımından xüsusi əhəmiyyət daşıyacaq. Bu il ölkələrimiz arasında diplomatik münasibətlərin qurulmasının 25 illiyini qeyd etdiyimizi nəzərə alsaq, Sizin səfəriniz bu baxımdan müstəsna əhəmiyyət kəsb edəcək.

Məmnunluqla qeyd etmək istərdim ki, keçən il yaxşı əlaqələndirilmiş birgə səylər nəticəsində ikitərəfli və çoxtərəfli əməkdaşlığın möhkəmləndirilməsi baxımından nəzərəçarpan irəliləyiş əldə etmişik. Bu, strateji tərəfdaşlığımızın yüksək səviyyəsindən xəbər verir.

Fürsətdən istifadə edərək, iqtisadi əməkdaşlığımızın möhkəmləndirilməsi istiqamətində səylərin daha da artırılmasının zəruriliyini, bu prosesdə ticarət və iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın xüsusi rolunu vurğulamaq istəyirəm.

İcazə verin, Serbiyanın ərazi bütövlüyünün və suverenliyinin dəstəklənməsində Azərbaycanın göstərdiyi prinsipial mövqeyə görə bir daha Sizə təşəkkürümü bildirim. Bizim üçün böyük önəm daşıyan bu məsələ ilə bağlı Azərbaycan Respublikasının dəyişməz mövqeyi ölkənizin beynəlxalq hüququn əsas prinsiplərinə daimi sadiqliyinin bariz nümunəsidir.

Cənab Prezident, Sizə bir daha dərin ehtiramımı ifadə edirəm.

***Aleksandr VUÇİÇ,***
***Serbiya Respublikasının Prezidenti***

Hörmətli İlham Heydər oğlu!

Milli bayramınız - Müstəqillik Günü münasibətilə Sizi və bütün Azərbaycan xalqını Qazaxıstan xalqı adından və şəxsən öz adımdan təbrik edirəm.

Sizin müdrik rəhbərliyinizlə Azərbaycan dövlətçiliyin möhkəmlənməsi, əhalinin sosial-iqtisadi rifahının təmin edilməsi və beynəlxalq aləmdə nüfuzunun artırılması sahəsində sanballı uğurlara nail olub.

Qazaxıstanda qardaş Azərbaycan xalqının nailiyyətlərinə ürəkdən sevinir və qarşılıqlı əməkdaşlığın hərtərəfli dərinləşməsinə yüksək diqqət ayırırlar.

Bununla əlaqədar Sizin Azərbaycana dəvətinizi məmnuniyyətlə qəbul edirəm.

Əminəm ki, qarşıdakı danışıqların yekunları ikitərəfli qarşılıqlı fəaliyyətin böyük potensialını tam həcmdə üzə çıxarmağa və Qazaxıstan-Azərbaycan münasibətlərini keyfiyyətcə yeni səviyyəyə çatdırmağa imkan verəcək.

Hörmətli İlham Heydər oğlu, Sizə məsul dövləti fəaliyyətinizdə yeni-yeni uğurlar, dost Azərbaycan xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

***Kasım-Jomart TOKAYEV,***
***Qazaxıstan Respublikasının Prezidenti***

Hörmətli İlham Heydər oğlu!

Ölkənizin milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə və bütün qardaş Azərbaycan xalqına səmimi təbriklərimi və ən xoş arzularımı çatdırmaqdan şərəf duyuram.

Bu illər ərzində Azərbaycan Respublikası siyasi, ticari-iqtisadi, mədəni-humanitar sahələrdə, xalqın rifahının yaxşılaşdırılmasında və beynəlxalq aləmdə ölkənin nüfuzunun yüksəldilməsində sanballı uğurlar qazanıb.

Əminik ki, Türkmənistan ilə Azərbaycan Respublikası arasında mehriban qonşuluq, dostluq və qarşılıqlı anlaşma prinsiplərinə söykənən qardaşlıq münasibətləri xalqlarımızın işıqlı gələcəyi naminə bundan sonra da dinamik inkişaf edəcəkdir. Fərəhlə qeyd etməliyik ki, son illər ərzində ölkələrimiz arasında səmərəli, qarşılıqlı faydalı əməkdaşlıq keyfiyyətcə yeni səviyyəyə yüksəlib.

Hörmətli İlham Heydər oğlu, bu xoş fürsətdən istifadə edərək Sizə səmimi-qəlbdən möhkəm cansağlığı və xoşbəxtlik, qardaş Azərbaycan xalqına sülh, əmin-amanlıq və firavanlıq arzu edirəm.

*Dərin hörmətlə,*

***Sərdar BERDİMƏHƏMMƏDOV,***
***Türkmənistanın Prezidenti***



Hörmətli İlham Heydər oğlu!

Ölkənizin milli bayramı - Müstəqillik Günü münasibətilə tacik xalqı adından və şəxsən öz adımdan böyük məmnuniyyətlə Sizə və bütün dost Azərbaycan xalqına səmimi təbriklərimizi göndərirəm.

Tacikistan özünün mühüm tərəfdaşının sosial-iqtisadi inkişaf və beynəlxalq nüfuzunun möhkəmlənməsi sahəsində qazandığı nailiyyətlərə səmimi-qəlbdən sevinir.

Dost Azərbaycan ilə qarşılıqlı fəaliyyət Tacikistanın xarici siyasətində xüsusi yer tutur.

Fərəhlə bildirməliyəm ki, ölkələrimiz arasında zamanın sınağından çıxmış dostluq və əməkdaşlıq münasibətləri durmadan inkişaf edir.

Əminəm ki, ikitərəfli münasibətlərimizdə mövcud olan böyük potensialı tam həcmdə tətbiq etməklə biz birgə səylərimizlə bundan sonra da səmərəli əməkdaşlığımızı möhkəmləndirəcəyik.

Hörmətli İlham Heydər oğlu, Sizə möhkəm cansağlığı və bütün təşəbbüslərinizdə yeni-yeni uğurlar, qardaş Azərbaycan xalqına sülh və sabitlik, əmin-amanlıq və firavanlıq arzu edirəm.

*Hörmətlə,*

***Emoməli RƏHMON,***
***Tacikistan Respublikasının Prezidenti***

Əs-səlamu aleykum və rəhmətullahi və bərəkətuhu.

Azərbaycanın milli bayramı - Müstəqillik Günü münasibətilə zati-alinizə ən səmimi təbriklərimi, dost xalqınıza və ölkənizə isə tərəqqi və firavanlıq arzularımı çatdırmaqdan məmnunluq duyuram.

Bu xoş fürsətdən istifadə edərək xalqlarımızın tərəqqisi və rifahı naminə ölkələrimiz arasında münasibətləri möhkəmləndirmək, dostluq və əməkdaşlıq əlaqələrini inkişaf etdirmək əzmində olduğumuzu vurğulayıram.

*Dərin ehtiramla,*

***Bərham SALEH,***
***İraq Respublikasının Prezidenti***

Cənab Prezident!

Ölkənizin milli bayramı - Müstəqillik Günü münasibətilə Kuba xalqı və hökuməti adından Sizə və Azərbaycan xalqına ən səmimi təbriklərimi çatdırıram.

Bu xoş fürsətdən istifadə edərək, ölkələrimiz arasında dostluq əlaqələrinin və əməkdaşlığın möhkəmləndirilməsi istiqamətində fəaliyyətimizi bundan sonra da davam etdirməyə hazır olduğumuzu Sizə bir daha bildirirəm.

Xahiş edirəm, ən yüksək hörmət və ehtiramımı qəbul edin.

*Hörmətlə,*

***Migel Dias-Kanel BERMUDES,***
***Kuba Respublikasının Prezidenti***

Möhtərəm cənab Prezident!

Azərbaycanın milli bayramı - 28 May - Müstəqillik Günü münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Şərqin ilk demokratik, hüquqi, dünyəvi və parlamentli respublikasının qurulması Azərbaycan xalqının həyatında yeni bir mərhələnin başlanğıcı olmaqla yanaşı, bütün türk dünyasının qürur mənbəyinə çevrilmişdir. Bu gün müstəqil Azərbaycan dünya birliyində layiqli yer tutmuş azad, öz müqəddəratını özü həll edən, beynəlxalq aləmdə nüfuzlu söz sahibi olan bir ölkədir.

Türk dünyası ailəsinin önəmli bir hissəsi olan Azərbaycanın bütün sahələrdə sürətlə irəliləməsi, Sizin rəhbərliyinizlə ərazi bütövlüyünün təmin edilməsi və 44 günlük müharibədə tarixi zəfərin qazanılması türk xalqlarına böyük qürur hissi yaşatmışdır. İnanıram ki, zati-alinizin təşəbbüsü ilə yaradılan və türk xalqlarının maddi-mənəvi irsinin mühafizəsi, təbliği istiqamətində fəaliyyət göstərən Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu ilə təşkilatın qurucu üzv dövləti olan Azərbaycan Respublikası arasında sıx əməkdaşlıq və dostluq münasibətləri bundan sonra da uğurla inkişaf edəcəkdir.

Sizin 2022-ci ili Azərbaycanda "Şuşa ili" elan etməyinizlə son dərəcə əlamətdar hadisəyə çevrilən bu tarix növbəti il bütün türk dünyasında təntənə ilə qeyd olunacaq. Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu da bu istiqamətdə keçiriləcək tədbirlərə öz töhfəsini verməyə hazırdır.

Sizə möhkəm cansağlığı, Azərbaycanın tərəqqisi naminə ali dövləti fəaliyyətinizdə yeni-yeni uğurlar, Azərbaycan xalqına isə sülh, əmin-amanlıq və xoşbəxtlik arzulayıram.

*Dərin hörmətlə,*

***Günay ƏFƏNDİYEVA,***
***Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti***

Hörmətli İlham Heydər oğlu!

Sizi və qardaş Azərbaycan xalqını milli bayramınız - Müstəqillik Günü münasibətilə təbrik edirəm.

Azərbaycanın müstəqillik əldə etməsindən ötən onilliklər ərzində ölkədə dövlət quruculuğunda, iqtisadiyyatın və sosial sahənin inkişafında strateji yüksəliş baş verib.

Aşkardır ki, ölkənin nailiyyətlərinin çoxu məhz Sizin adınızla bağlıdır və mühüm məsələlərin həllinə peşəkar, ölçülübbiçilmiş yanaşmanın nəticəsidir. Bu gün respublika özünün zəngin və bənzərsiz mədəniyyətini qoruyub saxlayır, çoxəsrlik dostluq və mehriban qonşuluq ənənələrini zənginləşdirir.

Bu ənənələr əsasında xalqlarımız arasında yaranmış etimad və tərəfdaşlıq mühiti qarşılıqlı faydalı və hərtərəfli əməkdaşlığın daha da genişlənməsi üçün mühüm amildir. Anadan olmasının 100 illiyini 2023-cü ildə qeyd edəcəyimiz böyük Rəsul Həmzətovun yazdığı kimi, qoy Xəzərin möhtəşəm dalğaları bizim ədəbi qardaşlığımızdan danışsın!

Hörmətli İlham Heydər oğlu, icazə verin, zati-alinizə səmimi-qəlbdən tükənməz enerji, işlərinizdə böyük uğurlar, Sizə, doğmalarınıza və yaxınlarınıza möhkəm cansağlığı və firavanlıq arzularımı bildirim.

*Hörmətlə,*

***Sergey MƏLİKOV,***
***Rusiya Federasiyasının Dağıstan Respublikasının rəhbəri***

Hörmətli cənab Prezident!

Azərbaycanın Müstəqilliyi Günü münasibətilə ən səmimi təbriklərimi qəbul edin.

Tarixi faktdır ki, Azərbaycan hələ 104 il bundan əvvəl ən ali demokratik dəyərləri bəyan etməklə bərabər, onları özünün əməli fəaliyyətində təmin etmiş ölkələrdən biridir. Azərbaycan Xalq Cümhuriyyəti bütün Yaxın Şərqdə, o cümlədən türk-müsəlman dünyasında hüququn aliliyinə əsaslanan ilk parlamentli respublika, dünyəvi demokratik dövlət modeli olub. Bugünkü Azərbaycan Respublikası Azərbaycan Xalq Cümhuriyyətinin layiqli varisidir.

Bu əlamətdar gündə mən bir daha Sizə - müdrik dövlət xadiminə, peşəkar və mahir diplomata, müstəsna istedadlı və praqmatik siyasi xadimə, böyük strateq və Müzəffər Ali Baş Komandana, Azərbaycan dövlətinin layiqli Liderinə səmimi, dərin hörmət və minnətdarlıq hisslərimi bildirmək istərdim.

Cənab Prezident, İkinci Qarabağ müharibəsi və müharibədən sonrakı dövrdə həyata keçirilən diplomatiya Sizin yuxarıda sadalanan şəxsi keyfiyyətlərinizin hamısını bütün dünyaya əyani şəkildə nümayiş etdirdi. Bu, həm hərbi zəfər, həm də şəxsən Sizin siyasi-diplomatik və geosiyasi qələbəniz, eləcə də igid və mərd Azərbaycan əsgərlərinin və zabitlərinin, bütün Azərbaycan xalqının qələbəsi idi.

Azərbaycan qalib dövlət kimi özünün ərazi bütövlüyünü bərpa etdi, 30 il ərzində erməni işğalı altında olmuş tarixi torpaqlarını özünə qaytardı və Cənubi Qafqaz regionunda özünün artan geosiyasi, hərbi-texniki və diplomatik qüdrətini və əhəmiyyətini bütün dünyaya sübut etdi.

Sizin müdrik, çoxşaxəli və balanslaşdırılmış xarici siyasətiniz sayəsində Azərbaycan Respublikası Cənubi Qafqazın güclü geosiyasi mərkəzinə, həqiqi geosiyasi liderinə çevrilib, dünya birliyində özünəməxsus yer tutub.

Biz, əslən Azərbaycandan olan İsrail vətəndaşları çox fəxr edirik ki, məhz Azərbaycan sivilizasiyalararası, konfessiyalararası və mədəniyyətlərarası dialoqun həqiqi nümunəsi kimi qalır. Məhz Sizin praqmatik və müdrik dövləti fəaliyyətiniz sayəsində Azərbaycanda cəmiyyətin həqiqi həyat tərzi olan tolerantlıq və multikulturalizm siyasəti uğurla həyata keçirilir. Azərbaycanın özünəməxsus multikulturalizm modeli var. Bu model erməni millətçiliyinin, şovinizminin, vandalizminin, faşizminin və terrorizminin alternatividir.

Məmnuniyyətlə qeyd etmək istəyirəm ki, İsrail Dövləti, İsrail xalqı və dünya yəhudiləri şəxsən Sizin Azərbaycanda yaşayan bütün icmalara, həmçinin yəhudi icmasının adət-ənənələrinə dünyada analoqu olmayan qayğıkeş münasibətinizi yüksək qiymətləndirirlər.

Bizim hər birimiz üçün müqəddəs olan Müstəqillik Günü münasibətilə bütün Azərbaycan Respublikasına ən xoş, səmimi sülh və firavanlıq arzularımı qəbul edin.

Sizə və Sizin gözəl ailənizə səmimi-qəlbdən tükənməz enerji, möhkəm cansağlığı, xoşbəxtlik, əmin-amanlıq, ali dövləti fəaliyyətinizdə böyük uğurlar, qardaş Azərbaycan xalqına isə sülh və firavanlıq arzu edirəm.

*Dərin hörmətlə,*

***Arye QUT,***
***İsrailli ictimai xadim, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin İsrail Dövlətindəki nümayəndəliyinin direktoru,"İsraildə Azərbaycan Evi" qeyri-hökumət təşkilatının icraçı direktoru***

Hörmətli İlham Heydər oğlu!

Müstəqillik Günü münasibətilə ən səmimi təbriklərimi qəbul edin.

Bu bayram respublikanın doğma torpağa sevgi, müstəqil və güclü Azərbaycanın gələcəyinə inam hissi ilə yaşayan bütün vətəndaşlarının birliyinin rəmzidir.

Sizin yorulmaz fəaliyyətiniz sayəsində bu gün Azərbaycan tərəqqi yolunda inamla irəliləyən, öz uğurlarına görə haqlı olaraq fəxr edə biləcək müasir demokratik dövlətdir. Sosial sahə, sənaye, kənd təsərrüfatı böyük sürətlə inkişaf edir, Azərbaycan xalqının çox böyük elmi, intellektual və mədəni potensialı reallaşır.

Azərbaycanın beynəlxalq nüfuzu durmadan artır, başqa ölkələrlə, o cümlədən Rusiya ilə qarşılıqlı faydalı əməkdaşlıq möhkəmlənir. Əminəm ki, dövlətlərimiz arasında strateji tərəfdaşlıq bütün istiqamətlərdə - siyasi, iqtisadi və mədəni sahələrdə bundan sonra da yeni nailiyyətlərlə zənginləşəcək.

Sizə möhkəm cansağlığı və xoşbəxtlik, Azərbaycan xalqına davamlı tərəqqi, sülh, əmin-amanlıq arzu edirəm.

*Hörmətlə,*

***Mixail QUTSERİYEV,***
***"SAFMAR qrupu" Səhmdar Cəmiyyətinin prezidenti, Direktorlar Şurasının sədri***

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə və Sizin simanızda bütün Azərbaycan xalqına ən səmimi təbriklərimi və xoş arzularımı çatdırıram.

Azərbaycanda 30 illik fəaliyyətimiz ərzində dünya səviyyəli enerji layihələrinin əməliyyatçısı olmağımızla, bu layihələrin icrasını təhlükəsiz, səmərəli və etibarlı şəkildə həyata keçirməyimizlə qürur duyuruq.

BP şirkəti Azərbaycanla əməkdaşlığın davamlı olaraq genişləndirilməsinə böyük əhəmiyyət verir və bu əməkdaşlığın daha da möhkəmlənəcəyinə ümid edir.

Bu xoş fürsətdən istifadə edərək Sizə möhkəm cansağlığı, xoşbəxtlik, Azərbaycan xalqına isə sülh, rifah və tərəqqi arzulayıram.

*Hörmətlə,*

***Qəri COUNZ,***
***BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti***

Hörmətli İlham Heydər oğlu!

Azərbaycanın milli bayramı - Müstəqillik Günü münasibətilə ən səmimi təbriklərimi qəbul edin. Şəxsən Sizə və ailənizə möhkəm cansağlığı, uğurlar və firavanlıq arzulayıram.

Son illər Sizin rəhbərlik etdiyiniz ölkə üçün həqiqətən əlamətdar və tarixi illər olub. Şübhəsiz, bu, Sizin şəxsi xidmətinizdir. Ümidvarıq ki, bu, tezliklə Qafqazda sülhün bərqərar olmasına, bütün xalqlar üçün tərəqqiyə şərait yaradacaq. Bu da vacib məqamdır ki, Rusiya və Azərbaycanın münasibətləri möhkəmlənməkdə davam edib.

Sizinlə görüşlərimizi məmnuniyyətlə xatırlayıram və ümid edirəm ki, hələ qarşıda birgə iş imkanlarımız olacaq.

Sizə möhkəm cansağlığı və uğurlar arzulayıram.

*Hörmətlə,*

***Rafael HÜSEYNOV,***
***Rusiya Jurnalistlər İttifaqının katibi***

Möhtərəm cənab Prezident!

Müstəqillik Günü münasibətilə zati-alinizə ən səmimi təbriklərimizi çatdırmaqdan, Sizə möhkəm cansağlığı arzulamaqdan böyük məmnunluq duyuruq. Doğma Azərbaycanın hökumətinə və xalqına Allah-Taaladan daha çox tərəqqi və rifah diləyirik.

Misir-Azərbaycan Dostluq Cəmiyyəti Misir və Azərbaycan xalqları arasında müxtəlif sahələrdə əlaqələrin möhkəmləndirilməsi və əməkdaşlığın inkişaf etdirilməsi üçün maksimum səylərini əsirgəmir.

Qoy doğma Azərbaycan Respublikası Sizin müdrik və uzaqgörən rəhbərliyinizlə daim inkişaf etsin və daha da firavanlaşsın.

Ən səmimi arzularımızı və salamlarımızı qəbul edin.

*Dərin hörmətlə,*

***Misir-Azərbaycan Dostluq Cəmiyyəti İdarə Heyətinin üzvləri və təsisçiləri:***
***Əli Cümə - Misir Ərəb Respublikası parlamentinin Dini işlər və vəqflər komitəsinin sədri, professor;***
***Usamə əl-Əbd - Misir parlamentinin Dini işlər və vəqflər komitəsi sədrinin müavini, professor;***
***Əl-Seyyid Mahmud əl-Şərif - Seyyidlər Həmkarlar İttifaqının sədri, Misir parlamenti sədrinin sabiq birinci müavini;***
***Yusif əl-Şərqavi - Misir Ərəb Respublikasının Azərbaycan Respublikasındakı sabiq səfiri;***
***Adil Dərviş - Misir Helvan Universitetinin professoru, Misir Mədəniyyət Mərkəzinin Azərbaycan Respublikasındakı keçmiş direktoru;***
***Bağdadi İmam - Misir Ərəb Respublikası Ali Təhsil Nazirliyinin Baş direktoru;***
***Tövhid Məhəmməd - müşavir, vəkil;***
***Midhət Camal - general, Misir əl-Xeyir Fondunda "İbn əs-Səbil" layihəsinin rəhbəri;***
***Usamə Əbdürrəhman - Helvan Universitetinin professoru;***
***Mona Zidan - Helvan Universitetinin professoru;***
***Əhməd Əbdu Tarabek - Orta Asiya və Qafqaz məsələləri üzrə tədqiqatçı və jurnalist;***
***Mustafa Hicazi - "Orange" şirkətinin Baş direktoru;***
***Seymur Nəsirov - Misir-Azərbaycan Dostluq Cəmiyyətinin İdarə Heyətinin və Misirdəki Azərbaycan diasporunun sədri***

## Prezidentlər Azərbaycan-İsrail əlaqələrinin inkişafından məmnunluq ifadə ediblər

Mayın 26-da İsrail Dövlətinin Prezidenti İsxak Hersoq Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

İsrail Dövlətinin Prezidenti qarşıdan gələn 28 May - Müstəqillik Günü münasibətilə Prezident İlham Əliyevə təbriklərini çatdırıb.

Dövlətimizin başçısı göstərilən diqqətə və təbrikə görə İsrail Dövlətinin Prezidentinə minnətdarlığını bildirib.

Prezidentlər Azərbaycan-İsrail əlaqələrinin inkişafından məmnunluq ifadə edib, əməkdaşlığın bundan sonra da genişlənəcəyinə ümidvar olduqlarını bildiriblər.

Söhbət zamanı ikitərəfli münasibətlərin perspektivləri və qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

***Prezidentin Mətbuat Xidməti***

# İlham Əliyev Ağdamı cənnətə çevirəcək





# 9 müəssisə, 50 milyon manat investisiya

## İlham Əliyevin bir il öncə təməlini qoyduğu Ağdam Sənaye Parkı xarici və yerli investorlar üçün əlverişli məkana çevrilib

**"Biz elə bir Ağdam quracağıq ki, bu, bütün dünya ölkələrinə örnək olsun..."**

**Bir il öncə, 2021-ci il mayın 28-i, Müstəqillik Günündə yeni Ağdamın təməl daşını qoyarkən Müzəffər Ali Baş Komandan İlham Əliyevin səsləndirdiyi bu fikir düşmənin 27 il ərzində xarabalığa çevirdiyi Qarabağın giriş qapısı sayılan bu məkanın çox qısa zamanda yenidən cənnətməkana çevriləcəyinin nidası oldu.**

**Ağdamın strateji əhəmiyyəti, eləcə də acı mənzərəsi tikinti-quruculuq işlərinin ilk olaraq məhz buradan başlanması zərurətini yaradırdı. Bu səbəbdən də ilk baş planı təsdiqlənən şəhər Ağdam oldu. Bir il öncə Prezident şəhərin baş planına uyğun çox mühüm sosial-iqtisadi infrastrukturların təməlini qoydu. Onlardan biri də rayonun sənaye potensialının üzə çıxarılması üçün yaradılan Ağdam Sənaye Parkı idi.**

Artıq sənaye parkının təməlinin qoyulmasından bir il ötür. Maraqlıdır, görəsən, bu müddət ərzində parkın ərazisində hansı yeniliklər, burada fəaliyyət göstərəcək müəssisələr üçün nə kimi imkanlar yaradılıb. Elə bu suallara aydınlıq gətirmək üçün Ağdam Sənaye Parkına baş çəkib görülən işlərlə maraqlandıq.









### Ərazi minalardan təmizlənib, yeni mobil şəhərcik yaradılıb

Ağdam Sənaye Parkı 190 hektar sahəni əhatə edir və ərazisi tam olaraq minalardan təmizlənib. İşçilərin rahatlığının təmin edilməsi məqsədilə artıq sənaye parkında mobil tipli şəhərcik salınıb.

Mobil şəhərcikdə konteyner tipli 8 ədəd yataqxana (40 nəfərlik), tibb məntəqəsi, 2 ədəd ofis, ərzaq və təsərrüfat marketləri, aptek, yeməkxana, camaşırxana, idman meydançası və 2 ədəd sanitar qovşaq inşa olunub. Konteynerlərin ətrafında 480 metr uzunluğunda hasar inşa edilib.

Şəhərciyə asfalt yol çəkilib, abadlıq işləri tamamlanıb. Sənaye parkının işıqlandırılmasında günəş enerjisindən qidalanan panellərdən istifadə edilir. İşdən sonra istirahət məqsədilə söhbətgahlar yaradılıb. Sənaye parkının ərazisində iki bankın ödəniş terminalları da quraşdırılıb.





Ərazidə tikinti aparılacaq sahənin su ilə təmin edilməsi məqsədilə 350 metr dərinliyində subartezian quyusu qazılıb. Əraziyə 10 kV-luq elektrik xətti çəkilib və ərazidə 630 kV-lıq komplekt transformator məntəqəsi (KTM) quraşdırılıb. İşğaldan azad olunduqdan sonra Ağdam şəhərində ilk elektrik enerjisi və su təchizatı sistemi Ağdam Sənaye Parkının ərazisində quraşdırılıb.

### Müəssisələr 10 il müddətinə vergilərdən, 7 il isə gömrük rüsumundan azaddırlar

Sənaye parkı qida sənayesi, kiçik sənaye və xidmət, iri sənaye müəssisələri, sosial və texniki zonalar, TIR parkı, tikinti materiallarının satışı bazası hissələrinə bölünəcək. Burada tikinti materiallarının istehsalı müəssisələrinin yaradılması, kənd təsərrüfatı məhsullarının qablaşdırılmasının, meyvə-tərəvəz konservlərinin, ət və süd məhsullarının, şərab, yem, gübrə istehsalı və emalının, eyni zamanda xidmət sahələrinin, soyuducu kameraların təşkili də planlaşdırılır.

İndiyədək Ağdam Sənaye Parkında 9 sahibkarlıq subyektinə ("Dadaş-N", "Veliev", "Smartpoint", "Ram Beynəlxalq Nəqliyyat və Ticarət", "Ağ Tekstil", "Prof-Dam", "Metkons", "Agah Group" və"Expert Services FZE" Məhdud Məsuliyyətli Azad Zona Müəssisəsi) rezidentlik statusu verilib.

"Dadaş-N" MMC Ağdam Sənaye Parkının 2 hektar ərazisində müxtəlif çeşiddə sintetik xalçaların istehsalı ilə məşğul olacaq. "Veliev" MMC parkın 7 hektar ərazisində "Prefabrik dəmir-beton məmulatları istehsalı" layihəsini həyata keçirəcək. "Smartpoint" MMC alternativ və bərpaolunan enerji mənbələri ilə (əsasən günəş enerjisi) qidalanan işıq dirəklərinin və digər qurğuların istehsalını təşkil edəcək. "Ram Beynəlxalq Nəqliyyat və Ticarət" MMC "Polimer məhsulların istehsalı", "Ağ Tekstil" 1 hektar ərazidə "Uniforma, xüsusi və fərdi geyimlərin istehsalı" layihəsini, "Prof-Dam" MMC dam örtüklərinin istehsalı layihəsini həyata keçirəcəklər. "Metkons" MMC havalandırma, yanğınsöndürmə avadanlıqları və müxtəlif metal məmulatların istehsalını, "Agah Group" MMC isə müxtəlif ölçüdə metal profillərin, eləcə də anbar stellajlarının istehsalını nəzərdə tutan zavodlar inşa edəcəklər. Birləşmiş Ərəb Əmirlikləri kapitallı "Expert Services FZE" Məhdud Məsuliyyətli Azad Zona Müəssisəsi isə sənaye parkının 1,2 hektar ərazisində ağır texnikaya texniki xidmət mərkəzinin təşkili layihəsini həyata keçirəcək.

Prezident İlham Əliyev bu il fevralın 13-də Ağdama növbəti səfəri çərçivəsində sənaye parkında "Smartpoint" və "Dadaş-N" MMC-nin təməlini qoyaraq öz xeyir-duasını verib. Onu da bildirək ki, ümumilikdə 9 müəssisə tərəfindən sənaye parkına 50 milyon manatdan çox investisiyanın yatırılması və 1000-dən artıq daimi iş yerinin yaradılması planlaşdırılır.

Hazırda ölkədə fəaliyyət göstərən sənaye parklarında tətbiq edilən vergi və gömrük güzəştləri Ağdam Sənaye Parkında da tətbiq ediləcək. Belə ki, parkın rezidentləri qeydiyyata alındıqları tarixdən 10 il müddətinə əmlak vergisindən, torpaq vergisindən, gəlir və ya mənfəət vergisindən, istehsal məqsədilə idxal etdikləri texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı zamanı ƏDV-dən və 7 il müddətinə gömrük rüsumlarından azad olunacaqlar. Eyni zamanda rezidentlər dövlət vəsaiti hesabına hazır infrastrukturla təmin ediləcəklər və yaxın günlərdə bu istiqamətdə işlərin görülməsinə başlanılacaq.

Ərazidə yaşıllıq sahələri də salınıb, lakin... Sənaye parkına nəzarət edən İqtisadiyyat Nazirliyindən bir xahişimiz var: lütfən, bu yaşıllıqların məhv olmasına imkan verməyin. Çünki əkilən ağaclar baxımsızlıq səbəbindən artıq quruyub. Əsas ağac əkmək deyil, onu yaşatmaqdır...

### Ağdam həm də Qarabağın sənaye mərkəzinə çevriləcək

İşğaldan azad edilmiş ərazilər, o cümlədən Ağdam şəhəri də geniş tikinti meydançasını xatırladır, tarixi zəfərdən sonra bərpa işləri dayanmadan, sürətlə davam etdirilir.

İlham Əliyev Ağdama hər səfərində Qarabağın gələcək inkişafında həlledici rol oynayacaq infrastruktur obyektlərinin, iqtisadi və sosial tipli layihələrin təməlini qoymaqla bir daha dünyaya nümayiş etdirir ki, Azərbaycan 27 il müddətində xarabalığa çevrilən yurd yerlərini tezliklə yalnız öz qüdrətinə ən abad, nümunə göstəriləcək məkana çevirəcək. Ağdamda şahidi olduğumuz mənzərə isə onu deməyə əsas verdi ki, yerli və xarici investorların sənaye parkına marağı getdikcə artır. Tezliklə rezidentlərin sayı və investisiyanın həcmi, miqdarı da artacaq və bu vəsaitlər də İlham Əliyevin yenidən yaratdığı müasir Ağdamın tikinti-quruculuq prosesinə yatırılacaq.

*Xüsusilə də Ağdamın strateji coğrafi mövqeyi, Qarabağla digər bölgələrin qovuşuğunda yerləşməsi, insan resursları potensialı və infrastruktura çıxış imkanları şəhərin gələcəkdə Qarabağın sənaye mərkəzinə çevrilməsi imkanlarını daha da genişləndirir.*

***Rəşad BAXŞƏLİYEV, "Azərbaycan"***

# Yeni Ağdamda bizi işıqlı gələcək gözləyir



**Ötən il 28 May - Müstəqillik Günündə yeni Ağdamın ilk təməl daşını öz əlləri ilə qoyan cənab Prezident İlham Əliyev həm də bizlərə, Ağdam ictimaiyyətinin nümayəndələrinə, bütün qarabağlılara dedi ki, "Mən söz vermişəm və artıq bunu icra edirəm - Qarabağı cənnətə döndərəcəm!"**

**Bəlkə də həyatımda bir daha yaşamayacağım ən xoşbəxt anları məhz həmin gün yaşadım. İllərlə həsrətini çəkdiyim, doğmalarımın məzarını belə ziyarət etməyə gedə bilmədiyim əziz torpağımdaydım.**

İndi vətənimin havası ilə nəfəs alırdım, ən əsası, qədim Ağdamın yeni təməlinin qoyulduğu tarixi və qürurlu anlara şahidlik edirdim.

Doğma Ağdamı mükəmməl diplomatik bacarığı ilə bir güllə atılmadan, bir itki belə verilmədən xilas edən Müzəffər Ali Baş Komandan indi də ona yeni həyat bəxş edirdi.

Müstəqillik günümüzdə Ağdamın bərpasının başlanğıcını qoyan dövlət başçımız ən müasir Ağdamın qurulacağının və buranın tezliklə modern şəhərə çevriləcəyinin müjdəsini verdi, demək olar ki, Ağdamın Baş Planında yer alan bütün layihəri bir-bir bizimlə müzakirə etdi, fikirlərimizi dinlədi. Həmin zaman möhtərəm Prezident layihənin icraçılarına tapşırıq verdi ki, Ağdam üçün elə ağaclar, güllər seçsinlər ki, burada bitsin. Onda mən də söylədim ki, cənab Prezident, Ağdamda nə əksən bitər, subtropik bitkilərin hamısı Ağdamda bitir. Ağdamın torpağı çox münbitdir.

Yeni Ağdam 100 min əhalilik möhtəşəm bir şəhər olacaq. İşğaldan əvvəl şəhərin 600-700 hektar ərazisi var idisə, indi 1700 hektar olması planlaşdırılır. Parklar, meşələr salınacaq, kanal çəkiləcək. Evlərin hər biri gözəl layihələr əsasında tikiləcək. Köhnə abidələrin hamısı bərpa olunacaq, Fərhadın heykəli, Cümə məscidi, Çörək muzeyi və digərləri. Onu da deyim ki, Ağdamın işğal və qələbə tarixi iki muzeydə yaşadılacaq, "İşğal" və "Zəfər" muzeyləri yaradılacaq.

Həmin günü mənim üçün əlamətdar edən daha bir möhtəşəm məqam da yaşandı. Ağdamda vaxtilə təhsil aldığım və erməni vandalları tərəfindən dağıdılmış qədim 1 saylı orta məktəbin yenidən təməli qoyuldu. Dövlət başçımız bu tarixi məktəbin həm keçmiş, həm də gələcək şagirdlərinin qəlbinə fərəh və sevinc bəxş etdi.

Görüş zamanı cənab Prezident söylədi ki, biz elə bir şəhər yaradacağıq, elə bir Ağdam quracağıq ki, bu, bütün dünya üçün örnək olacaqdır.

Ağdamdakı həmin tarixi görüşün üzərindən bir il keçib. İndi dövlət başçımızın yeni Ağdamla bağlı planlaşdırdığı layihələr bir-bir gerçəkləşdirilir.

Mənfur ermənilərin daşı daş üstündə qoymadığı və görənlərinin dəhşətə gələrək "Qafqazın Xirosiması" adlandırdığı Ağdam gündən-günə dirçəlir. Rayonun bərpası ilə bağlı kompleks tədbirlər görülür, Böyük qayıdışa möhtəşəm hazırlıq işləri aparılır.




190 hektar ərazidə qurulacaq Ağdam Sənaye Parkının yaxın gələcəkdə istifadəyə veriləcək yeni müəssisələrinin təməl daşı da bu ilin fevralında möhtərəm Prezident tərəfindən qoyulub. Həmçinin Ağdamda iki yarımstansiyanın - "Ağdam-1" və "Ağdam-2" yarımstansiyalarının açılışı olub ki, onların fəaliyyəti nəticəsində gələcəkdə bütün rayon elektrik enerjisi ilə dayanıqlı şəkildə təmin ediləcək. Şəhərdə təqribən 2 ildən sonra fəaliyyətə başlayacaq müasir mehmanxananın təməli qoyulub, təqribən ilyarıma - iki ilə inşa ediləcək altı evdən ibarət yaşayış kompleksinin inşası nəzərdə tutulub, 210 çarpayılıq Ağdam Mərkəzi Şəhər Xəstəxanasının təməli qoyulub və rayon sakinlərinə tibbi xidmətin göstərilməsi üçün imkanlar yaradılıb.

Ağdama qaz xəttinin çəkilişi layihəsi işlənilir, içməli suyun gətirilməsi və digər əhəmiyyətli işlər də tezliklə reallaşdırılacaq. Mühüm məsələlərdən biri də Ağdamın yol-nəqliyyat infrastrukturunun tamamilə yenidən qurulmasıdır. Bərdə-Ağdam avtomobil yolu, dəmir yolu inşa edilir. Cənab Prezidentin göstərişi ilə Füzuli-Ağdam avtomobil yolunun çəkilişi layihəsi artıq icra olunur. Bu yol həm Füzuli və Ağdam şəhərlərini birləşdirəcək, eyni zamanda Ağdamı Füzuli Beynəlxalq Hava Limanı ilə birləşdirəcək. Bununla həm də Ağdama başqa ölkələrdən gəlmək daha da asanlaşacaq.

Bütün bu sadalanan işlər onu göstərir ki, Azərbaycan dövləti tarixi zəfərdən dərhal sonra daha bir tarixi uğuru reallaşdırır və bütün maliyyə, texniki imkanlarını, kadr potensialını səfərbər edərək, işğaldan azad etdiyi torpaqlarını sürətlə dirçəldir, o ərazilərdə əbədi həyatın var olması üçün mühüm işlər görür.

Doğma şəhərimizin ruhu da özünə qaytarılır. Ağdamın mənəvi rəmzi hesab olunan Cümə məscidi Heydər Əliyev Fondu tərəfindən yüksək səviyyədə bərpa edilir.

Ümumiyyətlə, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərliyi altında Heydər Əliyev Fondu işğaldan azad olunan bütün ərazilərimizdə tarixi, mədəni, dini irsimizin bərpası yönündə müstəsna işlər həyata keçirir.

Ağdam sözün əsl mənasında uğurlu gələcəyə yol alıb. Görülən möhtəşəm işləri Ağdama səfər edən vətəndaşlarımız, o cümlədən də biz ağdamlılar görür və tezliklə doğma şəhərimizə qovuşacağımızın sevincini, xoşbəxtliyini yaşayırıq.

Buna görə biz Ulu Öndər siyasətinin layiqli davamçısı cənab Prezident İlham Əliyevə minnətdarıq. Müzəffər Ali Baş Komandanımız doğma Qarabağımızı işğaldan azad edərək talandan, tapdaqdan qurtardığı kimi, indi də viran qoyulmuş yurdlarımızı dünyada görünməmiş bir sürətlə bərpa edir.

Biz illərlə foto və videokadrlarda mənfur düşmən tərəfindən viranəyə çevrilən, bircə həyat nişanəsi belə qalmayan Ağdama ürək ağrısı ilə baxmışıq. Dağıdılan evlərimizi, küçələrimizi, hər birimizin əzizlərinin, yaxınlarının uyuduğu şumlanan qəbiristanlıqlarımızı acı gözyaşları içərisində izləmişik. Ömrümüzün ən gözəl çağlarının keçdiyi yurd yerlərimizə bir daha qayıda bilməyəcəyimizin qorxusunu yaşamışıq. Amma budur, bütün bu dəhşətli hadisələr keçmişdə qalıb.

*Ağdam azaddır. Bu gün Ağdam quruculuq-bərpa meydanına çevrilib. Evləri, küçələri, məhəllələri yenidən qurulur. Bağlar, bağçalar salınır...*

*Ağdam çiçəklənir, gülüstanlığa çevrilir...*

*Cənab İlham Əliyevin öz əlləri ilə bizim üçün başdan yaratdığı yeni Ağdama dönəcəyimiz xoşbəxt günlər isə çox yaxındadır.*

***Habil QURBANOV, AMEA Azad Həmkarlar İttifaqının sədri, hüquq üzrə elmlər doktoru, professor***

# Prezident Administrasiyasında yeni siyasi konfiqurasiyanın inkişafı çərçivəsində növbəti görüş

**Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev yeni siyasi konfiqurasiyanın inkişafı çərçivəsində mayın 26-da Azərbaycan Demokrat Partiyasının sədri Sərdar Cəlaloğlu ilə görüşüb.**

Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, Prezident İlham Əliyevin "Mən yeni siyasi islahatlar proqramını təqdim etmişəm, o, bütün siyasi partiyaların mütləq əksəriyyəti tərəfindən dəstəklənib... Biz siyasi dialoqun çox aktiv fazasındayıq" fikirlərini xatırlatmaqla görüşə başlayan şöbə müdiri Azərbaycan Demokrat Partiyasının iqtidarla əməkdaşlığını yüksək dəyərləndirib. Yeni siyasi konfiqurasiyanın inkişaf etdirilməsi, iqtidar-müxalifət dialoqunun təşviqi ən yeni islahatlar dalğasının tərkib hissəsi kimi qeyd olunub. Bildirilib ki, ölkəmizdə siyasi partiyalar arasında sağlam münasibətlərin qurulması, partiyaların legitim fəaliyyəti üçün lazımi işlərin görülməsi dövlət başçısı tərəfindən şöbənin qarşısına qoyulmuş önəmli vəzifələrdən biridir. Bu vəzifələrin layiqincə icrası üçün partiyalarla birgə əməkdaşlığa çox böyük önəm verilir. Hər bir partiyanın cəmiyyətin siyasi həyatına özünəməxsus qatqısı var və bu, ölkəmizdə fikir plüralizminin inkişafının qarantıdır. Təbii ki, ölkəmizdəki siyasi sabitlik uğurlarımızın vacib əsaslarından biridir və siyasi sabitliyin qorunması hər bir ölkə vətəndaşının üzərinə düşən məsuliyyətdir. Bu səbəbdən radikal siyasi meyillər dövlətçiliyə təhdiddir. Hər bir siyasi partiya bu təhdidlərə qarşı mübarizə aparmalı və cəmiyyətin ümumi inkişafına öz töhfəsini verməlidir.

Ölkəmizdə aparılan siyasi islahatlar çərçivəsində belə bir görüşə dəvət edildiyi üçün təşəkkürünü bildirən Azərbaycan Demokrat Partiyasının sədri Sərdar Cəlaloğlu yeni siyasi konfiqurasiyanın formalaşdırılması istiqamətində atılan uğurlu addımlarla bağlı fikirlərini bölüşüb. Sərdar Cəlaloğlu qeyd edib ki, ölkədə sağlam siyasi mədəniyyətin formalaşdırılması, dövlətimizin müstəqilliyinin möhkəmlənməsi, ölkənin beynəlxalq nüfuzunun artırılması istiqamətində böyük işlər görülməkdədir. Postmüharibə dövrünün problemlərinin aradan qaldırılması, postpandemiya dövründə ölkə iqtisadiyyatının inkişafı, bütün əhali təbəqələrinin sosial müdafiəsinin güclənməsi üçün islahatların daha intensiv xarakter alması olduqca vacibdir. Azərbaycan Demokrat Partiyası dövlətimizin güclənməsi, əhalinin rifahının yaxşılaşdırılması, cəmiyyətin siyasi maarifləndirilməsi üçün imkanlarını səfərbər etməyə hazırdır.

Tərəflər ölkəmizdə partiyalararası əməkdaşlığın yeni formatları, iqtidar-müxalifət dialoqunun fərqli formalarda inkişafı, partiyaların beynəlxalq əlaqələrinin gücləndirilməsi, Azərbaycan-Türkiyə münasibətlərinin qardaşlıq səviyyəsində olması, Avropa İttifaqı ilə əməkdaşlıq çərçivəsində Cənubi Qafqazda sülh və təhlükəsizliyin təmin edilməsi, Qarabağda bərpa-quruculuq işləri və başqa məsələlər haqqında müzakirələr aparıblar.

# Milli Məclis Sədrinin müavini Adil Əliyev şəhid ailələri və qazilərlə görüşüb

**Mayın 26-da Milli Məclis Sədrinin müavini Adil Əliyev deputat seçildiyi 20 saylı Nərimanov ikinci seçki dairəsində şəhid ailələrinin nümayəndələri, qazilər və seçicilərlə görüşüb.**



Milli Məclisin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, görüşdə vətəndaşların qaldırdıqları sosial, humanitar, tibbi məsələlərin bir qismi yerindəcə öz həllini tapıb. Digər müraciətlərin həlli məqsədilə aidiyyəti qurumlara məktublar ünvanlanıb.

Tədbirdə Adil Əliyev görüş iştirakçılarını 28 May - Müstəqillik Günü münasibətilə təbrik edərək dövlət başçısının rəhbərliyi ilə işğaldan azad olunmuş ərazilərimizdə aparılan abadlıq, quruculuq işləri barədə geniş məlumat verib. Bildirib ki, bu gün Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhəri müxtəlif festivallara, tədbirlərə evsahibliyi edir.

Çıxış edən şəhid ailələri və qazilər göstərilən yüksək diqqət və qayğıya görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını ifadə ediblər.

# Azərbaycan və Türkiyə arasında hərbi sahədə birgə sənayenin inkişafı vacibdir



**Mayın 26-da Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov Türkiyə Respublikası milli müdafiə nazirinin müavini Muhsin Derenin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, qonaqları salamlayan general-polkovnik Z.Həsənov ölkələrimiz arasında münasibətlərin dostluq və qardaşlıq üzərində qurulduğunu qeyd edərək Azərbaycanın müdafiə qüdrətinin artırılması məqsədilə hərbi, hərbi-texniki, hərbi təhsil sahələrində Türkiyə ilə əməkdaşlığın genişləndirildiyini və bunun bölgədəki sabitliyi təmin edən mühüm amillərdən olduğunu bildirib.

Hər iki qardaş ölkə arasında əlaqələrin inkişafında dövlət başçılarının dostluq münasibətlərinin mühüm rol oynadığı, bütün sahələrdə olduğu kimi, hərbi sahədə də qardaş Türkiyənin göstərdiyi dəstəyin xüsusi əhəmiyyət kəsb etdiyi vurğulanıb.

Türkiyənin milli müdafiə nazirinin müavini isə öz növbəsində Azərbaycana növbəti dəfə səfər etməsindən məmnunluğunu ifadə edərək ölkələrimiz arasında hərbi sahədə birgə sənayenin inkişaf etdirilməsinin, qarşılıqlı təcrübə mübadiləsinin vacibliyini vurğulayıb.

Bakıda keçirilən "TEXNOFEST Azərbaycan" festivalının xüsusi əhəmiyyətə malik olduğu diqqətə çatdırılıb.

Görüşdə Azərbaycan-Türkiyə hərbi əməkdaşlığının inkişaf perspektivləri və əsas istiqamətləri müzakirə edilib.

# Bakıda "Qoşulmama Hərəkatının təkamülündə Afrika irsi" mövzusunda konfrans olub

**Mayın 26-da Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi tərəfindən Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi ilə birgə "Qoşulmama Hərəkatının təkamülündə Afrika irsi" mövzusunda konfrans keçirilib.**

AZƏRTAC xəbər verir ki, Afrika Gününə həsr olunmuş konfransın əsas məqsədi Qoşulmama hərəkatı (QH) tarixində Afrika irsinin rolu və Hərəkatın hazırkı beynəlxalq münasibətlər konyukturasında Afrika qitəsindən olan ölkələrin maraqlarını daha yaxşı təbliğ etməsinə dair müzakirələrin aparılması olub.

Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin rəhbəri Fərid Şəfiyev və Mərakeş Krallığının ölkəmizdəki səfiri Məhəmməd Adil Embarşın açılış nitqi ilə çıxış etdikləri konfransda Azərbaycanda akkreditə olunmuş diplomatik korpusun, akademik dairələrin təmsilçiləri, tədqiqatçılar, Afrika İttifaqı ölkələrindən, həmçinin QH-yə üzv ölkələrdən olan tələbələr və çoxsaylı media nümayəndələri iştirak ediblər.

Nazir Ceyhun Bayramov Azərbaycanın Afrika ölkələri ilə artan xətt üzrə inkişaf edən əməkdaşlıq əlaqələrinin yeni müstəviləri əhatə etdiyini bildirib. Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi çərçivəsində Azərbaycan və Afrika qitəsi ölkələri arasında mövcud münasibətlərin yeni mərhələyə qədəm qoymasını məmnunluqla qeyd edən nazir Ceyhun Bayramov hərəkatın hazırkı sədri qismində ölkəmizin Afrika qitəsini fəaliyyət dövründə diqqət mərkəzində saxlanılması üçün prioritet regionlardan biri kimi müəyyən etdiyini diqqətə çatdırıb. Afrikanın böyük potensiala malik olan bir qitə kimi əhəmiyyətinə diqqət çəkən nazir bu konfransın qlobal sülhün və inkişafın təmin edilməsində Afrika qitəsinin tarixi, bu günü və gələcək rolu haqqında məhsuldar müzakirələr aparmaq üçün yaxşı fürsət olduğunu bildirib.

Qeyd edək ki, mayın 25-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Afrika Günü münasibətilə Afrika İttifaqı Komissiyasının sədri Musa Faki Mahamata və hazırda Afrika İttifaqına sədrlik edən ölkə qismində Seneqal Respublikasının xarici işlər naziri Aissata Tol Sola məktublar ünvanlayıb.

Məktublarda nazir Ceyhun Bayramov qarşı tərəfə Afrika Günü münasibətilə səmimi təbriklərini çatdırıb. Nazir Ceyhun Bayramov ölkəmizin Qoşulmama Hərəkatına sədrliyi dövründə Azərbaycanın Afrika ilə münasibətlərinin daha da inkişaf etməsinin qürurverici olduğunu ifadə edib. Nazir Azərbaycanın QH-yə sədrliyi dövründə pandemiyanın inkişaf etməkdə olan ölkələrə, xüsusilə Afrika ölkələrinə təsirini minimuma endirmək istiqamətində qlobal təşəbbüsləri geniş şəkildə təşviq etdiyini vurğulayıb. Həmçinin Azərbaycanın istər QH sədrliyi dövründə, istərsə də ondan sonra Afrika ölkələri də daxil olmaqla, hərəkatın bütün üzvləri ilə çoxtərəfliliyin təşviqi, eləcə də təşkilata üzv ölkələr arasında əməkdaşlığın, dostluğun və həmrəyliyin gücləndirilməsi uğrunda səylərini əsirgəməyəcəyini diqqətə çatdırıb.

# Prezident İlham Əliyevin göstərişinə əsasən bölgələrdə vətəndaşların qəbulu keçirilir

**Mərkəzi icra hakimiyyəti orqanları və digər idarəetmə qurumlarının rəhbərləri tərəfindən bölgələrdə vətəndaşların qəbulu cədvəlinə əsasən mədəniyyət naziri Anar Kərimov mayın 26-da Ağdam rayonunun Quzanlı qəsəbəsində Ağdam, Ağcabədi və Laçın rayonlarının sakinləri ilə görüşüb.**

Qəbuldan öncə mədəniyyət naziri Anar Kərimov və Ağdam Rayon İcra Hakimiyyətinin başçısı Vaqif Həsənov Ümummilli Lider Heydər Əliyevin Quzanlı qəsəbəsindəki abidəsini ziyarət edərək önünə tər çiçəklər qoyublar.

Daha sonra Ağdam rayon Heydər Əliyev Mərkəzində nazirliyin məsul əməkdaşlarının da iştirakı ilə vətəndaşların qəbulu keçirilib.

Ağdam, Ağcabədi və Laçın rayonlarından olan sakinlərin müraciətləri əsasən işlə təmin olunma, mədəniyyət müəssisəsinə əlavə ştatların ayrılması və digər məsələləri əhatə edib. Görüşdə həmçinin yerlərdəki incəsənət məktəblərində rəssamlıq ixtisası üzrə tədrisin səviyyəsinin daha da yüksəldilməsi və gənc istedadların üzə çıxarılması ilə bağlı layihə təklifi də irəli sürülüb.

Anar Kərimov vətəndaşların ayrı-ayrı məsələlərlə bağlı müraciət və təkliflərini dinləyib, ərizə və şikayətlərinə baxıb. Qaldırılan məsələlərin operativ, hərtərəfli araşdırılması və qanunvericiliyin tələblərinə uyğun həll edilməsi üçün müvafiq tapşırıqlar verib.

Nazirliyin fəaliyyət istiqamətlərinə aid olmayan müraciətlər isə aidiyyəti qurumlara göndərilməsi üçün qeydə alınıb.

# Azərbaycanın Türk Dövlətləri Təşkilatının işində fəal iştirakı məsələləri müzakirə olunub



**Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov mayın 26-da Türk Dövlətləri Təşkilatının Baş katibi Bağdad Amreyevlə görüşüb.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, görüş zamanı Türk Dövlətləri Təşkilatı tərəfindən müxtəlif istiqamətlər üzrə həyata keçirilən fəaliyyət, habelə Azərbaycanın təşkilatın işində fəal iştirakı məsələləri ətrafında fikir mübadiləsi aparılıb.

Nazir Ceyhun Bayramov Türk Dövlətləri Təşkilatının zəngin gündəliyinə istinad edib və bu xüsusda həyata keçirilən intensiv dialoqu məmnunluqla qeyd edib. O, Türk Dövlətləri Təşkilatı çərçivəsində ikitərəfli və çoxtərəfli formatlarda əməkdaşlığın genişləndirilməsinin əhəmiyyətini vurğulayıb.

Baş katib Bağdad Amreyev Azərbaycana səfərindən məmnunluqla bəhs edərək, dövlətimizin başçısı ilə keçirilmiş görüşün, habelə bu çərçivədə keçiriləcək Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin informasiya və yüksək texnologiyalar nazirlərinin toplantısının əhəmiyyətini diqqətə çatdırıb. Baş katib Şuşa şəhərinin 2023-cü ildə türk dünyasının mədəniyyət paytaxtı elan edildiyini xatırladaraq, bununla əlaqədar Şuşada bir sıra mədəniyyət tədbirlərinin keçiriləcəyini bildirib. O, həmçinin Türk Dövlətləri Təşkilatı tərəfindən Şamaxı şəhərinin 2023-cü il üçün türk dünyasının turizm paytaxtı seçildiyini xatırladıb və bunun Türk Dövlətləri Təşkilatı ölkələrinin turizm sahəsində əməkdaşlığının inkişafına müsbət töhfə verəcəyini bildirib.

Görüşdə həmçinin təşkilat tərəfindən növbəti aylarda keçirilməsi nəzərdə tutulan tədbirlər barədə müzakirələr aparılıb.

# Bakıda "Ənənəvi mediadan yeni mediaya keçid: Qlobal trendlər və hədəflər" mövzusunda "dəyirmi masa" keçirilib

Mayın 26-da ADA Universitetində Medianın İnkişafı Agentliyinin təşkilatçılığı və beynəlxalq ekspertlərin iştirakı ilə "Ənənəvi mediadan yeni mediaya keçid: Qlobal trendlər və hədəflər" mövzusunda "dəyirmi masa" keçirilib.



AZƏRTAC xəbər verir ki, Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılovun moderatorluğu ilə keçirilən "dəyirmi masa"da Türkiyə Azərbaycan Dostluq, Əməkdaşlıq və Həmrəylik Fondunun prezidenti Aygün Attar, Türk Dövlətləri Təşkilatının mətbuat katibi Qəhrəman Halisçəlik, "Sabah" qəzetinin əməkdaşı Mahmud Övür və "Star" qəzetinin köşə yazarı Ardan Zentürk çıxış ediblər.

"Dəyirmi masa"da Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov Azərbaycanda media sahəsində aparılan islahatlar barədə danışıb. Bildirib ki, çağdaş Azərbaycan oxucusunun keyfiyyətli kontentlə təmin olunması üçün bütün digər media subyektləri kimi qəzetlər də inkişaf etməlidir. Vurğulanıb ki, MEDİA Agentliyi çap mediasının onlayn formata keçidinin təmin edilməsi məqsədilə Azərbaycanda ilk dəfə olaraq müxtəlif qəzet və dərgilərin elektron versiyasının yerləşdiriləcəyi "E-köşk" platformasının yaradılması prosesini başa çatdırmışdır. İcraçı direktor bildirib ki, dövlət dəstəyinin məqsədi çap mediasının yalnız biznes strukturu kimi formalaşmasına yardım etmək deyil, texniki imkanlar baxımından onlayn media ilə bərabər olmayan rəqabət şəraitində ciddi fikir tribunası kimi qəzetlərin ayaqda qalmasına kömək göstərməkdir. Başqa sözlə desək, dövlət yazılı medianın timsalında Azərbaycan dilinin inkişafına, ənənəvi publisistik düşüncənin yaşamasına, eyni zamanda cəmiyyətdə plüralizmin möhkəmlənərək sərhədlərinin genişlənməsinə dəstək göstərir.

Türkiyə Azərbaycan Dostluq, Əməkdaşlıq və Həmrəylik Fondunun prezidenti Aygün Attar 44 günlük Vətən müharibəsindən sonra Azərbaycanın qalib mediasının önündə yeni vəzifələrin olduğunu bildirib, qalib medianın inkişafını təmin etməyin vacibliyini vurğulayıb.

"Dəyirmi masa"da müzakirəyə qatılan Türkiyədə akkreditasiyadan keçmiş beynəlxalq media subyektlərinin təmsilçiləri medianın müasir trendləri ilə bağlı fikirlərini bildirib və Türkiyə təcrübəsindən çıxış edərək rəqəmsal media mühitinə keçidlə bağlı düşüncələrini bölüşüblər.

# Paşinyan keçmiş hərbi xuntanın əsl məqsədini açıqladı

## Müxalifət seçkilərdə onlara dəstək olmayan xalqdan intiqam alır

**Ermənistanda siyasi qarşıdurmanın daha da dərinləşməsi, müxalifətlə hakimiyyət arasında ziddiyyətlərin kəskinləşməsi müşahidə olunur. Baş nazir Nikol Paşinyanın istefası tələbi ilə müxalifətin müddətsiz etiraz aksiyaları davam edir, siyasi vəziyyət gərgin olaraq qalır.**

Bir aydır davam edən vətəndaş itaətsizliyi aksiyaları artıq rəsmi İrəvanı ciddi şəkildə narahat edir. Müxalifətin "Müqavimət" hərəkatının üzvləri baş nazir Nikol Paşinyanın istefası tələbi ilə daha bir yürüş keçiriblər.

Müxalifətin budəfəki aksiyasına 44 günlük müharibə zamanı ölmüş hərbçilərin yaxınları da qoşulublar. Baş nazirin istefasını tələb edən etirazçılarla polis arasında qarşıdurma yaşanıb. Polis Opera Teatrının yaxınlığında Fransa meydanında mitinq keçirilməsinə icazə verməyib. Böyük kütlə İrəvanın Azadlıq meydanından baş nazirin iqamətgahına doğru yürüşə cəhd edib. Amma polis yolları bağlayaraq aksiyaçıları meydana buraxmayıb. Hökumət evinə yön alan aksiyaçılar orada toplaşaraq "Paşinyan, get!", "Müstəqil Ermənistan" şüarları səsləndirib.

Başqa bir məlumata görə, müxalifət düşərgəsində növbəti həbslərin aparılması qərara alınıb. Qeyd olunur ki, kütləvi etiraz aksiyalarının qarşısını almaq üçün hakimiyyət xüsusi plan hazırlayıb. Buraya müxalifət fəallarına qarşı güc tətbiq edilməsindən tutmuş onların mitinq keçiriləcək ünvana daxil olmazdan əvvəl müvəqqəti həbsinə kimi müxtəlif tədbirlər daxildir.

Konstitusiya Məhkəməsi aparatının keçmiş rəhbəri Edqar Kazaryan deyir ki, hamilə qadının qətlinə görə (Baş nazirin kortecinin vurduğu erməni qadın-red.) hələ də cinayət məsuliyyətinə cəlb edilməyən Nikol Paşinyanın xüsusi mühafizə dəstəsinin rəhbəri nəinki azadlıqda gəzir, hətta səlahiyyətlərini aşan işlərə də baş qoşur. O, yeni-yeni cinayətlər törətməkdə davam edir. Kazaryanın yeni cinayətlər dediyi məsələ isə "ictimai asayişi qoruyan" polis əməkdaşlarına göstərişlərin verilməsidir. İddia olunur ki, Paşinyanın etibar etdiyi bir nömrəli şəxs genişmiqyaslı aksiyalar zamanı kənardan dayanaraq prosesləri idarə edir.

Nikol Paşinyan isə parlamentdəki çıxışında deyib ki, İrəvandakı aksiyaların məqsədi vətəndaşlar və bütövlükdə cəmiyyət üçün mümkün qədər çox narahatçılıq yaratmaqdır. Müxalifətin bütün vasitə və mexanizmlərlə öz mesajlarını cəmiyyətə çatdırmaq üçün bir ay vaxtı var idi. Ümumiyyətlə, bu cür aksiyaların məqsədi cəmiyyəti proseslərə cəlb etmək və siyasi tələb formalaşdırmaqdır.

O qeyd edib ki, indi proseslər hakimiyyətin əleyhinə deyil, cəmiyyətin əleyhinə gedir. Paşinyanın sözlərinə görə, müxalifətin niyyəti odur ki, insanlar onlara qoşulmasalar, bu qüvvələr paytaxtda daha çox narahatlıqlar, tıxaclar yaradacaqlar. Etiraz aksiyalarının təşkilatçıları vətəndaşlardan onlara qoşulmaqdan imtina etdiklərinə, ötənilki parlament seçkilərinin nəticələrinə görə intiqam alırlar.

Bu arada dünya iqtisadiyyatında yaranan qeyri-müəyyənlik və çətinliklərin digər ölkələrlə müqayisədə Ermənistana daha çox dağıdıcı təsir göstərdiyi nəzərə çarpır. Xüsusən də Rusiyada rublun məzənnəsinin aşağı düşməsi Ermənistan iqtisadiyyatı üçün böyük fəlakət sayılır. Əvvəlki illərlə müqayisədə 2021-ci ildə Ermənistanda xüsusilə ərzaq məhsullarının qiymətlərində 11,5 faiz artım qeydə alınıb. İnflyasiya ilə yanaşı, insanların gəlirləri mütənasib şəkildə artmayıb və bu, erməni əhalisini daha da yoxsullaşdırıb. Ermənistan Mərkəzi Bankı isə inflyasiya qarşısında acizdir.

Ermənistanda ABŞ dollarının məzənnəsi möhkəmlənməyib, ucuzlaşıb. Bu prosesin heç bir obyektiv iqtisadi səbəbi yoxdur. Dolların ucuzlaşması həmin valyutada pul köçürmələri alan ailələrin gəlirlərinə mənfi təsir göstərir. Daxili ixrac da itkilərə məruz qalır. Onu da əlavə edək ki, xarici investorlar dolların "zəifliyi"nə görə Ermənistana marağını itirirlər.

Ermənistan Mərkəzi Bankı da inflyasiya ilə mübarizə üçün maliyyələşdirmə dərəcəsini 1,25 faiz artıraraq 9,5 faizə çatdırıb. Apreldə dolların orta məzənnəsi mart ayı ilə müqayisədə təxminən 26 dram azalıb. Əslində bu, idxal mallarının müəyyən qədər canlanmasına səbəb olmalı idi. Bununla belə, apreldə mart ayı ilə müqayisədə ümumi inflyasiya 2,3 faiz, o cümlədən ərzaq inflyasiyası 4 faiz təşkil edib. Göründüyü kimi, ABŞ dollarının "zəifləməsinə" və yenidən maliyyələşdirmə dərəcəsinin artırılmasına baxmayaraq, inflyasiya səngiməyib, əksinə, sürətlənib.

Bunlar Ermənistanın üzləşdiyi ümumi böhranın daha da dərinləşəcəyindən xəbər verir və ölkənin indi daha böyük sürətlə öz məhvinə doğru süründüyini göstərir.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

## Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzində 2022-ci ilin iyun ayında vətəndaşların qəbulu

### C Ə D V Ə L İ

| *Qəbulu aparan şəxs* | *Qəbul günü* |
|---|---|
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri** Əliyev Məhərrəm Abış oğlu | **1** |
| **Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Dövlət qulluğu və kadr məsələləri şöbəsinin müdiri** Məcidov Tələt Tahir oğlu | **2** |
| **Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin Katibliyinin rəisi** Həsənov Altay Tofiq oğlu | **3, 10, 17** |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Hüquq mühafizə orqanları ilə iş şöbəsinin müdiri** Ələsgərov Fuad Murtuz oğlu | **3, 20** |
| **Azərbaycan Respublikası Prezidentinin mətbuat katibi** Qasımov Azər Məhəmməd oğlu | **6** |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin müdiri** Əmirov Natiq Ərziman oğlu | **7** |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri** Mövsümov Şahmar Arif oğlu | **8** |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin müdiri** Nağdəliyev Zeynal Səfər oğlu | **9** |
| **Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsi** | **10** |
| **Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri** Əliyeva Fərəh Şirməmməd qızı | **13** |
| **Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri** Məmmədəliyev Yusuf Ülfət oğlu | **14** |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Dövlət nəzarəti məsələləri şöbəsinin müdiri** Həsənov Kərəm Əvəz oğlu | **16** |
| **Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinin müdiri** Kərimov Gündüz Hacı oğlu | **17** |
| **Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri** İsmayılov Süleyman Abbas oğlu | **21** |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri** Hacıyev Hikmət Fərhad oğlu | **22** |
| **Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Hüquq mühafizə orqanları ilə iş şöbəsinin Əfv məsələləri sektoru** | **23** |
| **Azərbaycan Respublikası Prezidentinin Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) xüsusi nümayəndəsi** Hüseynov Emin Zamin oğlu | **24** |
| **Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri** Vəliyev Ədalət Məqsəd oğlu | **28** |
| **Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi** Kərimov Aydın Zöhrab oğlu | **29** |
| **Azərbaycan Respublikası Prezidentinin Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Zəngilan rayonunda xüsusi nümayəndəsi** Hacıyev Vahid Rasim oğlu | **29** |
| * * * | |
| **Azərbaycan Respublikasının Təhlükəsizlik Şurası Azərbaycan Respublikasının Təhlükəsizlik Şurasının katibi** Usubov Ramil İdris oğlu | **30** |

**Qeyd: Vətəndaşlar Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzində qəbul olunurlar.**
**Ünvan: Bakı şəhəri, Nərimanov rayonu, Zaur Nudirəliyev, 79.**
**Qəbula yazılış qəbul gününə ən geci 1 iş günü qalmış dayandırılır. Qəbul saat 14:00-dan başlayır. Əlaqə üçün: Çağrı Mərkəzi - 1111**

## Mərkəzi icra hakimiyyəti orqanlarının və digər idarəetmə qurumlarının rəhbərləri tərəfindən 2022-ci ilin iyun ayında şəhər və rayonlarda keçiriləcək vətəndaşların qəbulu

### C Ə D V Ə L İ

| S/n | Qəbulun keçirildiyi şəhər, rayon | Əhatə olunan şəhər və rayonlar | Qəbulu keçirən mərkəzi icra hakimiyyəti orqanı və idarəetmə qurumu | Qəbulun keçirildiyi gün |
|---|---|---|---|---|
| 1. | **Qəbələ** | Qəbələ, Oğuz | **İqtisadiyyat naziri** Mikayıl Cabbarov | **03** |
| 2. | **Gədəbəy** | Gədəbəy, Şəmkir | **Kənd təsərrüfatı naziri** İnam Kərimov | **03** |
| 3. | **Şəmkir** | Şəmkir, Gədəbəy, Daşkəsən | **Baş prokuror** Kamran Əliyev | **07** |
| 4. | **Lənkəran** | Lənkəran, Astara, Lerik | **Ədliyyə naziri** Fikrət Məmmədov | **08** |
| 5. | **Cəlilabad** | Cəlilabad, Biləsuvar, Cəbrayıl | **Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədri** Zaur Mikayılov | **10** |
| 6. | **Oğuz** | Oğuz, Qəbələ | **"Azərsu" ASC-nin sədrinin səlahiyyətlərini icra edən** Köçərli Həsənov | **14** |
| 7. | **Beyləqan** | Beyləqan, Füzuli, Xocavənd | **Mədəniyyət naziri** Anar Kərimov | **16** |
| 8. | **Yevlax** | Yevlax, Mingəçevir, Bərdə, Tərtər, Goranboy | **Rəqəmsal inkişaf və nəqliyyat naziri** Rəşad Nəbiyev | **16** |
| 9. | **Bərdə** | Bərdə, Tərtər | **Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri** Rövşən Rzayev | **16** |
| 10. | **Qax** | Qax, Şəki | **"Azərişıq" ASC-nin sədri** Vüqar Əhmədov | **16** |
| 11. | **Zaqatala** | Zaqatala, Balakən, Qax | **Ali Məhkəmənin sədri** Ramiz Rzayev | **17** |
| 12. | **Masallı** | Masallı, Cəlilabad, Yardımlı | **Baş prokuror** Kamran Əliyev | **17** |
| 13. | **Yevlax** | Yevlax, Mingəçevir | **Ekologiya və təbii sərvətlər naziri** Muxtar Babayev | **17** |
| 14. | **Yardımlı** | Yardımlı, Masallı, Cəlilabad | **Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri** Mübariz Qurbanlı | **17** |
| 15. | **Naftalan** | Naftalan, Goranboy, Xocalı | **Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin sədri** Saleh Məmmədov | **17** |
| 16. | **Tovuz** | Tovuz, Qazax, Ağstafa | **Qida Təhlükəsizliyi Agentliyinin sədri** Qoşqar Təhməzli | **17** |
| 17. | **Biləsuvar** | Biləsuvar, Cəlilabad, Cəbrayıl | **Dövlət Gömrük Komitəsinin sədri** Səfər Mehdiyev | **20** |
| 18. | **Quba** | Quba, Qusar | **"Azəriqaz" İstehsalat Birliyinin baş direktoru** Ruslan Əliyev | **20** |
| 19. | **Şirvan** | Şirvan, Hacıqabul | **Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri** Anar Quliyev | **21** |
| 20. | **Masallı** | Masallı, Yardımlı | **Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri** Bahar Muradova | **23** |
| 21. | **Şamaxı** | Şamaxı, Qobustan, Ağsu, İsmayıllı | **Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi** Arzu Rəhimov | **23** |
| 22. | **Gəncə** | Gəncə, Goranboy, Samux, Kəlbəcər | **"Azəristiliktəchizat" ASC-nin sədrinin vəzifəsini müvəqqəti icra edən** İlham Mirzəliyev | **23** |
| 23. | **Şirvan** | Şirvan, Hacıqabul, Salyan, Neftçala, Biləsuvar, Cəbrayıl, Sabirabad, Saatlı, İmişli, Zərdab | **Daxili işlər naziri** Vilayət Eyvazov | **24** |
| 24. | **Qəbələ** | Qəbələ, Oğuz | **Energetika naziri** Pərviz Şahbazov | **24** |
| 25. | **Mingəçevir** | Mingəçevir, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, Ucar, Zərdab | **Təhsil naziri** Emin Əmrullayev | **24** |
| 26. | **Balakən** | Balakən, Zaqatala, Qax | **İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin sədri** Zaur Əliyev | **24** |
| 27. | **Gədəbəy** | Gədəbəy, Şəmkir | **Gənclər və idman naziri** Fərid Qayıbov | **25** |
| 28. | **Zaqatala** | Zaqatala, Balakən, Qax | **Baş prokuror** Kamran Əliyev | **28** |

**Vətəndaşların qəbulu müəyyən edilmiş günlərdə saat 10:00-da başlayır.**

## Azərbaycan Respublikası Milli Məclisinin Aparatında 2022-ci ilin iyun ayında vətəndaşların qəbulu

### C Ə D V Ə L İ

| Vəzifəli şəxs | Qəbul günü |
|---|---|
| **Əli Məhəmməd oğlu HÜSEYNLİ** Azərbaycan Respublikası Milli Məclisi Sədrinin birinci müavini - Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri | **6** |
| **Adil Abış oğlu ƏLİYEV** Azərbaycan Respublikası Milli Məclisi Sədrinin müavini - Gənclər və idman komitəsinin sədri | **13** |
| **Fəzail Feyruz oğlu İBRAHİMLİ** Azərbaycan Respublikası Milli Məclisi Sədrinin müavini - İctimai birliklər və dini qurumlar komitəsinin sədri | **2** |
| **Ziyafət Abbas oğlu ƏSGƏROV** Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri | **9** |
| **Zahid Məhərrəm oğlu ORUC** Milli Məclisin İnsan hüquqları komitəsinin sədri | **23** |
| **Sadiq Haqverdi oğlu QURBANOV** Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri | **3** |
| **Tahir Famil oğlu MİRKİŞİLİ** Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri | **28** |
| **Tahir Musa oğlu RZAYEV** Milli Məclisin Aqrar siyasət komitəsinin sədri | **6** |
| **Musa İsa oğlu QULİYEV** Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri | **20** |
| **Əhliman Tapdıq oğlu ƏMİRASLANOV** Milli Məclisin Səhiyyə komitəsinin sədri | **16** |
| **Hicran Kamran qızı HÜSEYNOVA** Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri | **29** |
| **Siyavuş Dünyamalı oğlu NOVRUZOV** Milli Məclisin Regional məsələlər komitəsinin sədri | **13** |
| **Bəxtiyar Həmzə oğlu ƏLİYEV** Milli Məclisin Elm və təhsil komitəsinin sədri | **8** |
| **Qənirə Ələsgər qızı PAŞAYEVA** Milli Məclisin Mədəniyyət komitəsinin sədri | **22** |
| **Səməd İsmayıl oğlu SEYİDOV** Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri | **7** |
| **Eldar Rza oğlu İBRAHİMOV** Milli Məclisin İntizam komissiyasının sədri | **2** |
| **Fərid Famil oğlu HACIYEV** Azərbaycan Respublikası Milli Məclisi Aparatının rəhbəri | **1** |
| **Firudin Süleyman oğlu HACIYEV** Azərbaycan Respublikası Milli Məclisinin İşlər müdiri | **7** |
| **Hacı Mirhəşim Miryaqub oğlu SEYİD** Milli Məclis Aparatının Dövlət quruculuğu, inzibati və hərbi qanunvericilik şöbəsinin müdiri | **17** |
| **Məhəmməd İmran oğlu BAZIQOV** Milli Məclis Aparatının İqtisadi qanunvericilik şöbəsinin müdiri | **21** |
| **Adil İsrayıl oğlu VƏLİYEV** Milli Məclis Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri | **24** |
| **Şakir Himalay oğlu ŞABANOV** Milli Məclis Aparatının İcra hakimiyyəti orqanları ilə əlaqələr şöbəsinin müdiri | **28** |
| **Ayan Zəfər qızı MURTUZOVA** Milli Məclis Aparatının Dövlət qulluğu və kadr məsələləri şöbəsinin müdiri | **10** |

**Qeyd: Vətəndaşlar Azərbaycan Respublikası Milli Məclisi Aparatının Qəbul otağında qəbul olunur.**
**Ünvan: Bakı şəhəri, Parlament prospekti, 1.**
**“Vətəndaşların müraciətləri haqqında” Azərbaycan Respublikasının Qanununun tələblərini təmin etmək məqsədilə:**
**Qəbul vaxtı saat 14:00-dan başlayır.**
**Qəbul günü qəbula yazılmaq imkanı saat 12:00-da dayandırılır.**
**Qəbula bir gün qalmış elektron qeydiyyat dayandırılır.**
**Azərbaycan Respublikasının Milli Məclisinə qəbula dəvət olunan vətəndaşlar şəxsiyyət vəsiqəsini təqdim edirlər.**
**Telefonlar: (012) 510-99-38; (012) 510-89-14; (012) 492-74-05.**

## *Zeynalabidin XÜRRƏM:* "Qarabağın işğaldan azad edilməsi əməkdaşlıq əlaqələrinin daha da genişləndirilməsi üçün əlverişli imkanlar yaradıb"

**"İran və Azərbaycan Respublikasının rəhbərlərinin səmərəli siyasi addımları ikitərəfli əlaqələrin inkişafını sürətləndirib və münasibətlərin perspektivi üçün daha yaxşı zəmin yaradıb".**



AZƏRTAC xəbər verir ki, bu sözləri İranın Şərqi Azərbaycan vilayətinin valisi Zeynalabidin Xürrəm 28 May - Müstəqillik Günü münasibətilə Təbrizdə keçirilən mərasimdə çıxışı zamanı deyib.

O, bildirib ki, Azərbaycan və İran xalqları müştərək tarixi keçmişə, dinə, mədəniyyətə, adət-ənənələrə malikdirlər. Bu amillər dövlətlərin yaxınlaşmasını, dostluq və mehriban qonşuluq şəraitində yaşamasını zərurətə çevirib. Hər iki dövlətin prezidentləri praqmatik siyasət yürüdərək əməkdaşlıq əlaqələrini inkişaf etdirməyə çalışırlar. Dövlət başçılarının siyasi xətti regionda sülhün və əmin-amanlığın qarantıdır.

Z.Xürrəm nəzərə çatdırıb ki, İran hər zaman Azərbaycanın ərazi bütövlüyünü tanıyıb və suverenliyinə hörmətlə yanaşıb.

Onun sözlərinə görə, Qarabağın işğaldan azad edilməsi qarşılıqlı faydalı əməkdaşlıq əlaqələrinin daha da genişləndirilməsi üçün əlverişli imkanlar yaradıb. Bu imkanlardan səmərəli istifadə edib iqtisadi, ticarət, tranzit, nəqliyyat və digər sahələrdə əməkdaşlıq əlaqələrini artırmaq günün tələbidir.

## *Patrisiya LALOND:* "Brüssel görüşü Ermənistan və Azərbaycanı sülhə aparacaq"

**"Brüsseldə Avropa İttifaqının sədrliyi ilə keçirilmiş üçtərəfli görüşün nəticələri ilə bağlı atılan ilk addımlar yaxşı xəbərdir. Brüssel görüşü Azərbaycanla Ermənistan arasında sülhə nail olmaq üçün ümidverici prosesdir. İnanıram ki, bu proses uğurlu olacaq və hər iki ölkəni sülhə aparacaq".**




Bu fikirləri Fransanın "Geopragma" beyin mərkəzinin vitse-prezidenti Patrisiya Lalond Brüssel görüşü ilə bağlı AZƏRTAC-a müsahibəsində söyləyib.

Prezident İlham Əliyevin bu istiqamətdə fəaliyyətini, uğurlarını qeyd edən Patrisiya Lalond bildirib ki, son günlər Ermənistandakı nümayişlərə, bir çox çətinliklərin olmasına, hətta istefasının tələb edilməsinə baxmayaraq, Nikol Paşinyanın bu istiqamətdə atdığı addımlar ölkəsini sülhə hazırlaması deməkdir.

"Üçtərəfli görüşün səhəri günü hər iki ölkədə delimitasiya və demarkasiya ilə bağlı komissiyaların yaradılması və onların ilk görüşünün keçirilməsi sevindiricidir. Həmçinin Brüssel görüşündə əldə olunan nəticələrdən biri Azərbaycanın Naxçıvanla quru yollarının bərpasıdır ki, bu da hər iki ölkə üçün əlverişli olacaq. Eyni zamanda Ermənistanın beynəlxalq bazara çıxışını təmin edəcək. Deyərdim ki, bu nəqliyyat dəhlizinin açılması ən yaxşı nəticədir və iqtisadi inkişaf deməkdir.

Bugünkü qlobal mürəkkəb vəziyyətdə Azərbaycan ilə Ermənistan arasında yaxınlaşma xoş xəbərdir. Zənnimcə, bu gün Azərbaycan ilə Ermənistan arasında bu yaxınlaşma, hətta deyərdim ki, yaxınlaşmadan daha vacib olan hazırkı vəziyyət regionda sabitliyi təmin edəcək", - deyə P.Lalond deyib.

## "Efes-2022" çoxmillətli təlimi davam edir

**Türkiyənin İzmir şəhərində keçirilən "Efes-2022" çoxmillətli təliminin növbəti mərhələsi üzrə tapşırıqlar icra olunub.**

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, təlimin növbəti günündə ssenariyə uyğun olaraq, sahil xəttinin sualtı minalardan təmizlənməsi, şərti düşmən arxasına havadan sızma, onun sahildə yerləşən hərbi obyektinə basqın və aşkar olunan terrorçuların zərərsizləşdirilməsi tapşırıqları iştirakçılar tərəfindən müvəffəqiyyətlə yerinə yetirilib. Ölkəmizi beynəlxalq təlimdə Əlahiddə Ümumqoşun Ordunun və Hərbi Dəniz Qüvvələrinin hərbi qulluqçuları təmsil edirlər.

# Bakıda "TEKNOFEST Azərbaycan" Aerokosmik və Texnologiya Festivalı keçirilir

Mayın 26-da Bakıda "TEKNOFEST Azərbaycan" festivalı start götürüb.

AZƏRTAC xəbər verir ki, "TEKNOFEST" Aerokosmik və Texnologiya Festivalı Türkiyə Respublikası Sənaye və Texnologiya Nazirliyi və Selçuk Bayraktarın rəhbərlik etdiyi "Türkiye Teknoloji Takımı" - T3 Vəqfinin təşkilatçılığı ilə 2018-ci ildən başlayaraq hər il keçirilir. Türkiyədən kənarda ilk "TEKNOFEST" Azərbaycanda, Bakı Kristal Zalı və ətrafındakı Dənizkənarı Bulvar ərazisində təşkil olunub.

"TEKNOFEST Azərbaycan" Aerokosmik və Texnologiya Festivalının təşkilatçıları Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Türkiyə Respublikası Sənaye və Texnologiya Nazirliyi və "Türkiye Teknoloji Takımı" - T3 Vəqfidir.

Festivalın açılışı bu möhtəşəm tədbirə hazırlığın gedişatını əks etdirən videoçarxın nümayişi ilə başlayıb.

Açılış mərasimində Azərbaycan Respublikasının rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev, "TEKNOFEST"in İdarə Heyətinin və T3 Fondu Qəyyumlar Şurasının sədri Selçuk Bayraktar və Türkiyənin sənaye və texnologiya naziri Mustafa Varank çıxış ediblər.

Nazir Rəşad Nəbiyev Türkiyə nümayəndə heyətini və bütün iştirakçıları salamlayaraq bildirib ki, "TEKNOFEST" Türkiyədən kənarda ilk dəfə məhz Azərbaycanda keçirilir.









### "Bu festival Azərbaycan və Türkiyənin gələcəyə birgə addımlamaq mesajıdır"

"Bu festival ölkələrimiz arasındakı dostluq, qardaşlıq və strateji müttəfiqlik əlaqələrinin növbəti təzahürüdür. Bu, eyni zamanda Azərbaycan və Türkiyənin gələcəyə birgə addımlamaq mesajıdır. Prezident İlham Əliyevin 2021-ci il 2 fevral tarixli sərəncamla təsdiq etdiyi "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" strateji sənədində müasir innovasiyalar məkanının qurulması məsələsi əksini tapıb. "TEKNOFEST" festivalının Azərbaycanda keçirilməsi innovasiya üfüqlərini daha da genişləndirir. Gənclərə özlərini sınamaq, xəyallarını gerçəkləşdirmək üçün yeni platforma, meydan təqdim edir", - deyə nazir vurğulayıb.

Nazir Rəşad Nəbiyev həmçinin qeyd edib ki, "TEKNOFEST Azərbaycan" festivalına qatılan gənclərin ən böyük qazancı əldə etdikləri təcrübələrdir. Festival gənclərin texnologiya və innovasiya sahəsində potensialının üzə çıxarılması üçün unikal platformadır.

"TEKNOFEST"in İdarə Heyətinin və T3 Fondu Qəyyumlar Şurasının sədri, eyni zamanda "Bayraktar TB2" pilotsuz uçuş aparatlarının yaradıcısı Selçuk Bayraktar qardaş Azərbaycanda olmaqdan qürur duyduğunu deyib.

### "TEKNOFEST" dünyaya açılarkən ilk gəldiyimiz yer təbii ki, qardaşımızın evi, Bakı olacaqdı"

"Bir millət, iki dövlət olaraq qardaşlığımız dəfələrlə sınandı və şükürlər olsun hər dəfəsində könül bağımız daha da qüvvətləndi. Azərbaycanda gözəl bir atalar sözü var: "Dost dar gündə tanınar". Biz hər zaman dar gündə də, şad gündə də bir yerdə olduq. Bakını İstanbuldan fərqləndirməyən Nuru Paşanın rəhbərliyi ilə Qafqaz İslam Ordusu da, Qarabağa xidmət edən yüksək texnoloji milli pilotsuz uçuş aparatlarını hazırlayan türk mühəndisləri də eyni ruha sahibdirlər. Bizim ürəyimizdə bir yara olan Qarabağ, eyni zamanda qardaşlığımızın zirvəsidir. Bu səbəblə Qarabağı yenidən vətən torpağı edən Zəfərin əsl memarı olan əziz şəhidlərimizi bir daha qarşınızda anıram. Ruhları şad olsun", - deyə Selçuk Bayraktar qeyd edib.

"Bayraktar TB2" pilotsuz uçuş aparatlarının yaradıcısı gənclərə müraciət edərək deyib ki, bu gün ölkələr müstəqilliklərini qorumaq üçün yüksək texnologiyalara sahib olmalıdırlar. Gənclər bu istiqamətdə özlərini təsdiqləməli, bilik və bacarıqlarını daim artırmalıdırlar: "Bacaracağına inanmayan insan necə mübarizə apara bilər, məqsədinə necə çata bilər? Buna görə bütün məsələnin kökü özünə inamdan başlayır. İnanaraq başladığınız işlərdə ailənizə, ailənizdən vacib millətinizə, millətinizdən vacib insanlığa faydalı olmağı qarşınıza məqsəd qoyun. Əminəm ki, əgər bu nüanslara dəyər verərək çalışsanız, etdiyiniz bütün işlərdə dünyanın ən yaxşısı ola bilərsiniz".

"TEKNOFEST" dünyaya açılarkən ilk gəldiyimiz yer təbii ki, qardaşımızın evi, Bakı olacaqdı. Biz "TEKNOFEST"i uşaqlarımızın və gənclərimizin arzularının hüdudu, onların qarşısında heç bir maneə olmasın deyə keçiririk. 2018-ci ildə 18 yarışma ilə başladığımız "TEKNOFEST"də yarışma sayı bu gün 40-a çatıb. İnanırıq ki, 10 müsabiqə və "Take Off" Müəssisə Zirvəsi ilə başlayan "TEKNOFEST" gənc qardaşlarımın Azərbaycana marağı ilə getdikcə daha da böyüyəcək. Bu vəsilə ilə türk uşaqları əzmkarlıqları sayəsində nəyə nail ola biləcəklərini dünyaya göstərəcəklər", - deyə S.Bayraktar vurğulayıb.

Türkiyənin sənaye və texnologiya naziri Mustafa Varank çıxışında "TEKNOFEST" iştirakçılarını gələcəyin mütəxəssisləri adlandırıb.

### "Biz Bakıda təkcə festival keçirmirik, eyni zamanda bütün dünyaya bir millət, iki dövlət olduğumuzu göstəririk"

Nazir müdafiə sənayesi sahəsində Azərbaycan ilə Türkiyənin birgə əməkdaşlığının faydalarına toxunub. Qeyd edib ki, Türkiyə hazırda müdafiə sənayesi sahəsində öz sözünü deyir. Bu sahədə Azərbaycana daim dəstək göstərməyə hazırdır.

"Azərbaycanda olmaqdan məmnunuq. "TEKNOFEST"in ilk məşəlini əvvəlcə İstanbulda, sonra Anadoluda yandırdıq. Ötən il Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan "TEKNOFEST"i beynəlxalq bir brendə çevirəcəyik" dediyi zaman, təbii ki, ilk dayanacaq məntəqəmiz Azərbaycan oldu. Hər il TEKNOFEST məkanında yaşadığım o həyəcanı, coşqunu, sevinci bu gün daha fərqli yaşayıram. Hazırda təkcə Türkiyə adından yox, qardaş Azərbaycan adından da sevinirəm. Türk dünyası üçün, İslam dünyası üçün sevinirəm", - deyə M.Varank bildirib.

Çıxışında gənclərə səslənən M.Varank deyib ki, bu gün burada iştirak edənlər sabaha dünyaya yol göstərəcək mühəndislər, elm adamları, tədqiqatçılar olacaq: "Sizin yerinizdə ola bilsəydim bu meydanda məskən salardım. Hər bir təyyarəni, hər bir texnikanı bir-bir araşdırar, qeydlər götürərdim. Lazım gələrsə evə getməzdim, burada yatardım. Bu meydanda olmaq sizlər üçün yaradılmış böyük bir şansdır".

"Müstəqillik hekayəmizin adı "milli texnologiya həmləsidir", - deyən Mustafa Varank qeyd edib ki, Prezident Rəcəb Tayyib Ərdoğanın rəhbərliyi ilə Türkiyə üçün hədəflər müəyyənləşdirilib. 10-15 il əvvəl bəzi ölkələr müdafiə sənayesi məhsullarını, PUA-ları satmır, gizli və açıq şəkildə embarqo qoyurdular. Türkiyə terrorla, terroristlərlə mübarizə apararkən texnoloji avadanlıqlardan məhrum qalırdı: "Amma "milli texnologiya həmləsi" onların planlarını pozdu. Bir zamanlar PUA satmadıqları türk milləti bu gün dövrünün ən mükəmməl texnoloji məhsullarını istehsal edir. Bu gün həmin ölkələr bu meydanda da gördüyünüz türk istehsalı olan texnikaları almaq üçün növbədə dayanıblar".

Nazir bildirib ki, siyasi mənada tam müstəqil olmağın yolu texnologiya sahəsində müstəqillikdən keçir: "Biz bunu hər yerdə deyirik, amma Azərbaycanda deməyin xüsusi mənası var. Çünki biz texnologiya sahəsində müstəqil olmamağın cəzasını uzun müddət çəkdik. Qarabağdakı işğalın, zülmün qarşısında dünyanın necə səssiz qaldığını azərbaycanlı qardaşlarımız və biz çox yaxşı bilirik. Bu gün burada keçirilən "TEKNOFEST Azərbaycan" hər kəsə verilən ən gözəl cavabdır. Biz Bakıda təkcə festival keçirmirik, eyni zamanda, bütün dünyaya müstəqilliyimizi, bir millət, iki dövlət olduğumuzu göstəririk".

Selçuk Bayraktarın geri sayımı ilə "TEKNOFEST Azərbaycan" festivalı öz işinə başlayıb. Tədbir iştirakçıları VIP tura dəvət olunublar. Tur zamanı qonaqlar sərgilərlə tanış olub, moderator onlara "TEKNOFEST" barədə ümumi məlumat verib.

### Festival çərçivəsində 8 texnoloji müsabiqə, 3 beynəlxalq tədbir keçirilir

"TEKNOFEST" çərçivəsində keçirilən yarışlarda pilotsuz uçuş aparatları, robotexnika, peyk modelləşdirilməsi və digər sahələr üzrə gənclərə öz bacarıqlarını göstərmək imkanı verir. Festivalda iştirak üçün ümumilikdə 1000 komanda, 5000-dək şəxs müraciət edib. Azərbaycanın 52 rayonundan, Türkiyənin isə 40 bölgəsindən gənclər festivalda iştirak üçün qeydiyyatdan keçiblər.

Festival elmi, texnologiyanı sevən gənclərə özünü sınamaq, ideyalarını reallaşdırmaq imkanı verəcək, təcrübə qazandıracaq. Eyni zamanda, birlikdə çalışan gənclərə komanda ruhu aşılayacaq. Sağlam mühitdə rəqabət aparmağı, əzmkar olmağı öyrədəcək.

"TEKNOFEST Azərbaycan" Aerokosmik və Texnologiya Festivalı çərçivəsində qardaş Azərbaycan və Türkiyə pilotlarının iştirakı ilə keçirilən aviaşou festivalın ən yaddaqalan hadisələrindən biri olub.

### Türkiyə və Azərbaycanın dövlət bayraqları və "TEKNOFEST" festivalının bayrağı Bakı səmasında dalğalanıb

Vətən müharibəsinin iştirakçısı, polkovnik Abdulla Qurbaninin təqdimatında möhtəşəm hava şousu ilk dəfə eyni təyyarədə uçuş edən qardaş Azərbaycan və türk pilotlarından ibarət aerobatika heyətlərinin keçidi ilə başlayıb. Vətən Müharibəsi Qəhrəmanı polkovnik Rəşad Nadirovun başçılıq etdiyi Mİ-17 helikopterlər üçlüyü ilk olaraq Türkiyə və Azərbaycan respublikalarının dövlət bayraqlarını və "TEKNOFEST" festivalının bayrağını Bakı səmasında dalğalandırıb.

Sonra Mİ-24 helikopterləri üçlüyü, MFİ-17 ("Super Muşşaq") təlim təyyarələrindən ibarət üçlük, aviabazalarda təyyarəçilərin uçuş qabiliyyətinin daim yüksəldilməsinə xidmət edən reaktiv mühərrikli L-39 təlim təyyarələri üçlüyü, hava məkanında aviasiyanın hakimliyini qoruyub saxlayan, hücum təyyarələrini və digər quru qoşun birləşmələrinin havadan qorunması və himayəsində müstəsna rol oynayan çoxməqsədli, səsdən iti MİQ-29 qırıcı təyyarələr üçlüyü, yerüstü hədəflərə dağıdıcı zərbələr endirən hücumçu SU-25 təyyarələr qrupu öz nümunəvi uçuşları ilə tamaşaçıları salamlayıb.

MİQ-29 təyyarələr qrupundan ayrılan "Qarabağ" ordenli qəhrəmanımız polkovnik Zaur Rüstəmov yenidən ali pilotaj fiqurlarını nümayiş etdirmək üçün aviaşou keçirilən hava məkanına qayıdıb və sıçrama, çevrilmə, qalxan, sərt həlqə, sıçramada çəllək və minimal sürətli keçid edib.

Qardaş Türkiyənin Hərbi Hava Qüvvələrinin "ATAK", "AKINCI-SLTRK", "HÜRKUŞ" təyyarələri, eləcə də "Solo Türk" və "Türk Ulduzları"nın nümunəvi uçuşları tamaşaçıları heyran qoyub.

"Türk Aviasiya və Kosmik Sənaye" şirkətinin istehsalı olan "HÜRKUŞ" təyyarəsində ön pilot Murad Ösbala olub. Digər pilot isə Azərbaycan Hərbi Hava Qüvvələrindən ehtiyata buraxıldıqdan sonra "HÜRKUŞ" aerobatika komandasında xidmət edən ilk azərbaycanlı test-pilot, ehtiyatda olan polkovnik Xəlil Yusubovdur.

Azərbaycan Hərbi Hava Qüvvələrinin Su-25 və MİQ-29 qırıcı təyyarələri, hərbi helikopterlər və qardaş Türkiyənin "Solo Türk", "Türk Ulduzları", "HÜRKUŞ" aerobatika komandaları, "ATAK" helikopterləri və "Akıncı" PUA-sı ilə nəfəs kəsən hava şousu təqdim ediblər. Milli şahinlərimiz də qardaş Türkiyənin pilotları ilə yanaşı, mürəkkəb manevrlərin öhdəsindən layiqincə, cəsarətlə, qətiyyətlə gəlib və bu dəfə də tamaşaçıları valeh ediblər.

"Ay-ulduz"lu türk bayrağını əngin səmalarda əzəmətlə dalğalandıran qəhrəman türk pilotları ilə yanaşı, bu gün İkinci Qarabağ savaşında Azərbaycanın üçrəngli bayrağını tarixi və əbədi torpaqlarımız olan cənnət Qarabağımızda, Şuşanın səmalarında qürurla dalğalandıran milli şahinlərimiz də məharət və peşəkarlıqlarını nümayiş etdiriblər.

Qeyd edək ki, "TEKNOFEST Azərbaycan" bir sıra komponentlər üzrə təşkil olunur. Bunlara texnologiya müsabiqələri, "Take off Baku" startap sammiti, "Smart Qarabağ" Hakatonu, Türk Dövlətləri Təşkilatının İKT üzrə nazirlər toplantısı, "Rocket League" və "TEKKEN" oyunları üzrə Avropa kuboku, sərgilər, hava şouları, konsertlər və əyləncə attraksionları daxildir.

Festivalın ilk gününün sonunda ziyarətçilər üçün musiqi proqramı və lazer şou təqdim olunub.



# Hərbi təyyarəçilərimiz "TEKNOFEST Azərbaycan" festivalında ilk uçuşlarını icra ediblər





**Azərbaycan Hərbi Hava Qüvvələrinə məxsus müxtəlif təyyarə və helikopterlər Bakıda keçirilən "TEKNOFEST Azərbaycan" festivalında ilk uçuşlarını icra ediblər.**

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, hərbi pilotlarımızın "MiQ-29" təyyarəsi ilə çətin pilotaj manevrlərlə nümunəvi uçuşu izləyənlər tərəfindən böyük maraqla qarşılanıb.

Qeyd edək ki, festival çərçivəsində Müdafiə Nazirliyi üçün ayrılan pavilyonda Hərbi Hava Qüvvələri ilə yanaşı, Quru Qoşunları, eləcə də mühəndis və rabitə hissə və bölmələrinin sərəncamında olan müasir hərbi-texniki və digər avadanlıqlar təqdim olunur.

# İnnovativ gələcəyə aparan "TEKNOFEST"

## Azərbaycan Dördüncü Sənaye İnqilabına dəstəyinin daha bir nümunəsini reallaşdırır

**Dünən Azərbaycanda "Teknofest" festivalına start verildi. İlk dəfədir ki, Azərbaycanda keçirilən bu festival mayın 29-na qədər davam edəcək.**

2018-ci ildən Türkiyənin Sənaye və Texnologiya Nazirliyinin və Selçuk Bayrakdarın rəhbərlik etdiyi "Türkiye Teknoloji Takımı" - T3 Vəqfinin təşkilatçılığı ilə keçirilən festivala Azərbaycan ikinci dəfədir ki, qatılır və bu dəfə ev sahibi qismində…

### Dünyanın gözü Azərbaycandadır

"TEKNOFEST Azərbaycan" çərçivəsində 8 kateqoriya üzrə texnologiya müsabiqələri, "Smart Qarabağ" Hakatonu, "Baku skills", "Yaşıl" texnologiyalar, "Pilotsuz uçuş aparatları", "Planer", "Robotexnika", "Rocket League" video oyunu üzrə Avropa çempionatı müsabiqələri , eyni zamanda "Take Off Baku" beynəlxalq startap sammiti təşkil olunur.

Festival çərçivəsində Azərbaycan startapları da daxil olmaqla xarici yeniliklərin təqdim olunacağı "Take Off Baku" sammitinin keçirilməsində əsas məqsəd regionda effektiv sahibkarlıq mühiti yaratmaq, yerli startapların inkişafını dəstəkləmək və ekosistemin əsas oyunçuları arasında davamlı əməkdaşlığı təmin etməkdir. Sammit Azərbaycanı regionun yeni və cəlbedici innovativ məkanı kimi beynəlxalq ictimaiyyətə daha yaxından tanıdacaq.

"TEKNOFEST-2022"nin Azərbaycanda keçirilməsi iki ölkə arasındakı qardaşlığın, müttəfiqliyin bariz nümunəsidir. Festival müxtəlif müsabiqələr, sərgilər, mədəni proqramlarla əyləncəni özündə ehtiva etməklə yanaşı, iki ölkə arasında aviasiya, kosmos və texnologiya sahəsində əlaqələri möhkəmləndirir, bu sahədə fəaliyyət göstərən təşkilatların, qurumların əməkdaşlığı üçün şərait yaradır.

Ölkəmizin evsahibliyi etdiyi bu festivalın Azərbaycana qazandıracağı dividendləri dəyərləndirən siyasi ekspertlər hesab edirlər ki, bu gün dünyanın gözü yenə Bakıdadır və bu tədbir ölkəmiz üçün olduqca böyük əhəmiyyətə malikdir.

### Festival hərbi iqtisadiyyatımızın güclənməsinə böyük kömək olacaq

Milli Məclisin İnsan hüquqları komitəsinin sədr müavini, Vəhdət Partiyasının sədri Tahir Kərimli qəzetimizə açıqlamasında deyib ki, paytaxtda keçirilən "TEKNOFEST" festivalı dəyərli bir hadisədir.

Deputat qeyd edir ki, bu festival ilk dəfə olaraq Türkiyədən kənarda -Azərbaycanda keçirilir. Festivaldan əvvəl "Bayraktar Akıncı" pilotsuz uçuş aparatlarının iki min kilometrlik məsafəni qət edərək Bakıya enməsinin də rəmzi mənası var. Bu onu göstərir ki, Türkiyə daim Azərbaycanla birlikdə olacaq: "Selçuk Bayrakdar da müsahibəsində dedi ki, belə texnologiyalara nail olmasaq, bunları öyrənməsək, müstəqilliyimiz daim təhlükə altında qala bilər. O qeyd etdi ki, bu festivalda texnologiyalara toxunan uşaqlar gələcəkdə həmin vasitələri idarə edə biləcəklər. Bu, çox gözəl mesajdı, yəni Azərbaycan-Türkiyə qardaşlığı inkişaf edir, bu, həm də gənclərimizi əhatə edir".

Tahir Kərimli deyir ki, 4 gün davam edəcək festival dünya ölkələrinin diqqətini Azərbaycana çəkib. Hazırda Azərbaycanda hərbi sənaye getdikcə inkişaf edir. Azərbaycanın Türkiyə, İsrail və digər dövlətlərlə bu sahədə əməkdaşlığı var. Bu festival hərbi iqtisadiyyatımızın güclənməsinə böyük kömək olacaq.

Deputat vurğulayır ki, Azərbaycanda hərbi texnikanın istehsalı getdikcə artmağa başlayır. Bu, həm Azərbaycanda hərbi sahənin möhkəmlənməsinə, həm də ixrac nəticəsində gəlir əldə etməyə imkan yaradır.

### "TEKNOFEST" innovativ iqtisadiyyat üçün yeni imkanlar yaradacaq

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vüqar Bayramov da festivalın əhəmiyyətini dəyərləndirərək deyir ki, Azərbaycan regionda Dördüncü Sənaye İnqilabına dəstək verən ölkələrdəndir. Davos Dünya İqtisadi Forumunun Dördüncü Sənaye İnqilabı üzrə mərkəzi məhz Bakıda yaradılıb. Bu da ondan xəbər verir ki, innovasiya, eləcə də texnologiyanın transferi Azərbaycan üçün prioritetdir və bu istiqamətdə ölkəmiz fəaliyyətini genişləndirir.

Deputat qeyd edir ki, "TEKNOFEST-2022"nin ölkəmizdə keçirilməsi Azərbaycana olan xüsusi diqqətdir. Festival xüsusən texnologiya sahəsində kifayət qədər nüfuzu olan tədbirdir. Çoxlu virtual və yerində izləyicilərin olduğunu nəzərə alaraq tədbir Azərbaycanın innovativ və texnoloji ölkə olduğunu təqdim etməsi baxımından da vacibdir. Eyni zamanda Azərbaycan şirkətləri, startapçıları üçün həm tanışlıq, həm də potensiallarını göstərmək baxımından böyük əhəmiyyət kəsb edir.

"TEKNOFEST"in Azərbaycanda keçirilməsi ölkə iqtisadiyyatı, xüsusən innovativ iqtisadiyyat üçün yeni imkanlar yaradacaq. Bu imkanlar nəticə etibarilə Azərbaycanın real sektoruna, həm texnoloji transferinə xüsusi töhfə verəcək. Buna görə festival yalnız texnoloji deyil, həmçinin Azərbaycan iqtisadiyyatının təqdimatı üçün vacib tədbirlərdən hesab olunur.

*Əsmər QARDAŞXANOVA, "Azərbaycan"*

# İŞİMİZ, GÜZƏRANIMIZ

## Qarabağa və Şərqi Zəngəzura işıq gəlir



### Regionda ən müasir elektrik enerjisi qurğuları istifadəyə verilir

**İşğaldan azad edilmiş ərazilərimizdə həyata keçirilən layihələr sırasında elektrik enerjisi obyektlərinin tikintisinin özünəməxsus yeri var. Bu da təsadüfi deyil.**

Çünki düşmən tərəfindən dağıdılmış kənd və şəhərlərdə həyatın yenidən canlanması üçün ən vacib şərtlərdən biri məhz işığın olmasıdır. Qarabağda və Şərqi Zəngəzurda qısa müddət ərzində "Azərenerji" və "Azərişıq" tərəfindən işə salınmış elektrik enerjisi obyektləri bu baxımdan mühüm əhəmiyyət daşıyır.

Prezident İlham Əliyevin müvafiq tapşırıqlarına uyğun olaraq sözügedən bölgələrdə bu istiqamətdə işlər uğurla davam edir. İşğaldan azad edilmiş ərazilərin hər tərəfində olduğu kimi, Zəngilan rayonunda da genişmiqyaslı işlər aparılır.

"Azərişıq" ASC-nin məlumatına görə, hazırda rayonun Ağalı kəndində həyata keçirilən "ağıllı kənd" layihəsi çərçivəsində elektrik enerjisi ilə təminat üçün 35 kV-luq müasir hava verilişi xətti çəkilir. Digər böyük layihə isə Zəngilanda tikintisi davam edən beynəlxalq hava limanının elektrik enerjisi ilə təchiz olunmasıdır. Hava limanına ikidövrəli, 35 kV-luq, tam izolyasiyalı elektrik xətti çəkilir.

Qeyd edək ki, yeni tip izolyasiya olunmuş 35 kV-luq xətlərin mühafizə zonası (3-6 metr) mövcud xətlərlə (30-40 metr) müqayisədə 6-10 dəfəyə qədər azdır. 35 kV-luq mövcud naqillərdə texniki itkilər 9-12 faiz olduğu halda müasir tipli izolyasiya olunmuş kabellərdə 3,5-4 faiz təşkil edir. Şəbəkələrin saxlanma xərcləri 100 faizdən 30 faizə, illik mal-material sərfi 100 faizdən 25 faizə endirilir, xidmət müddəti 2 dəfə azalır.

İzolyasiya olunmuş kabellərdə eləcə də qəza açılmalarının sayı aşağı düşür və müddəti mövcud naqil xətləri ilə müqayisədə 60 faizədək qısalır. Planlı açılmalar (şəbəkələrə xidmət, təmir, profilaktik baxış və s.) müddəti mövcud xətlərə nisbətən 75 faiz azdır. Yüksək gərginlik xətlərinin bilavasitə altında və yaxınlığında yerləşən yaşayış və əkin sahələrinin, sakinlərin həyat və fəaliyyət təhlükəsizliyi dəfələrlə artır, təbiət hadisələrinin elektrik verilişi xətlərinə təsiri aradan qaldırılır.

Yeni xətlərin istifadəsi ümumilikdə ölkənin enerji sisteminin dayanıqlıq, etibarlıq və səmərəlilik göstəricilərini beynəlxalq standartlara yaxınlaşdırmağa imkan verir. Bu növ kabel xətlərinin istənilən mühitdə - yeraltı, sualtı və hava ilə çəkilişi mümkünlüyü işğaldan azad edilmiş ərazilərdə qurulan 35/0,4 kV-luq innovativ paylayıcı şəbəkələrin istismarını asanlaşdıracaq, eyni zamanda onların dayanıqlı işini tam təmin edəcək.

Xatırladaq ki, Qarabağda və Şərqi Zəngəzurda qısa müddət ərzində "Azərenerji" və "Azərişıq" tərəfindən işə salınmış stansiya və yarımstansiyalar ölkənin energetika sisteminin gücünü xeyli artırıb. Həm də bunlar ən müasir enerji qurğularıdır. Məsələn, Cəbrayıl rayonunda istifadəyə verilən 110/35/10 kilovoltluq "Cəbrayıl" yarımstansiyası ən yeni avadanlıqlarla komplektləşdirilib, burada müasir rəqəmsal idarəetmə, mühafizə və avtomatika sistemləri quraşdırılıb. Yarımstansiyanın iş rejiminə real zamanda nəzarət olunması və göstəricilərin "Azərenerji"nin SCADA sisteminə ötürülməsi məqsədilə yerli mikro-SCADA dispetçer idarəetmə sistemi qurulub.

Elektroenergetika infrastrukturu tamamilə dağıdılmış Zəngilan rayonuna Füzulidəki "Şükürbəyli" yarımstansiyasından ümumi uzunluğu 110 kilometr olan ikidövrəli 110 kV-luq elektrik verilişi xətti çəkilib. Hava xəttinin ildırımdan mühafizəsi və yarımstansiyalararası siqnalların ötürülməsi üçün zəruri işlər görülüb. Yarımstansiya binası müasir avadanlıqla təchiz olunub.

110/35/10 kV-luq "Qubadlı" yarımstansiyasının tikintisi ilə yanaşı, rayonun Azərbaycanın ümumi enerji sisteminə qoşulması üçün tələb olunan infrastruktur da yaradılıb. Yeni çəkilən xətt boyunca ildırımdan mühafizə və yarımstansiyalararası informasiya mübadiləsi, internet üçün fiberoptik kabel çəkilib və bununla da Qubadlıya təkcə elektrik xətti deyil, həm də ən yüksək ötürücülük qabiliyyətinə malik sürətli internet xətti gətirilib. İldırımötürücü xəttin içərisində keyfiyyətli internet şəbəkəsi, o cümlədən SCADA dispetçer idarəetmə sistemi informasiyalarının, proqram təminatının, televiziya, telefon, rabitə, müşahidə kamera, canlı bağlantı, mərkəzləşdirilmiş arxiv şəbəkəsinin və başqa məlumatların sinxronlaşdırılması həyata keçirilib.

Ümumiyyətlə, indiyə qədər Şuşa, Füzuli, Kəlbəcər, Cəbrayıl, Zəngilan və Qubadlıda tikilən yeni yarımstansiyalara çəkilən elektrik xətlərində ildırımdan mühafizə və yarımstansiyalararası siqnal mübadiləsi üçün fiberoptik kabellər quraşdırılıb. Beləliklə, işğaldan azad edilmiş ərazilərin 80 faizi Azərbaycanın ümumi enerji sisteminə qoşulmaqla yanaşı, elektrik xətləri üzərindəki optik kabellər vasitəsilə yarımstansiya və rayonlardakı lazımi strukturlar internetlə təmin olunub. İşğaldan azad edilən rayonlardakı yarımstansiyalarda Dördüncü Sənaye İnqilabına uyğun olaraq intellektual enerjisistem şəbəkəsi konsepsiyası həyata keçirilib.

Yaxın keçmişdə xaricdən işıq idxal edən Azərbaycan indi həm özünün elektrik enerjisinə tələbatını ödəyir, həm də onu qonşu ölkələrə ixrac edir. Düşmənin 30 il xarabalığa çevirdiyi Qarabağ və Şərqi Zəngəzur da bu gün artıq işıqlığa çıxıb. Orada tikilən ən müasir enerji qurğuları ərazinin hər kəndini və şəhərini getdikcə daha çox nura qərq edəcək və Azərbaycanın işığı daha da artacaq.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

## Əmək bazarında görüləcək işlər müzakirə olunub

**Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın Əmək bazarı üzrə işçi qrupunun növbəti iclası keçirilib.**

İclasda işçi qrupunun rəhbəri, əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Kərimov, komissiyanın Katibliyinin rəhbəri, Prezident Administrasiyasının sektor müdiri Vüsal Şıxəliyev, işçi qrupunun üzvləri olan dövlət qurumlarının, qeyri-hökumət təşkilatlarının və biznes strukturlarının nümayəndələri iştirak edib.

Ölkəmizdə əmək bazarının inkişafına, aktiv məşğulluq proqramlarının genişləndirilməsinə yönələn ardıcıl islahatların aparıldığı vurğulanıb. Bu islahatların əsas beynəlxalq indekslərdə Azərbaycanın əmək bazarı üzrə göstəricilərlə bağlı mövqeyinə də müsbət təsiri qeyd edilib. İşçi qrupun builki fəaliyyət planında 8 hesabat üzrə 16 indikator və müvafiq olaraq 51 tədbirin müəyyən edildiyi bildirilib. Plan üzrə işlərin vaxtlı-vaxtında və işçi qrupu daxilində qurumların səmərəli əməkdaşlığı şəraitində hədəflər üzrə davam etdirildiyi diqqətə çatdırılıb.

Dünya Bankı qrupunun "Əlverişli Biznes Mühiti" layihəsinin "İşçi qüvvəsi" indikatoru üzrə ölkəmizin mövqeyinin yüksəldilməsi məqsədilə hazırlanmış diaqnostika matrisasının müzakirəsi aparılıb və icra edilməsi istiqamətində alt işçi qrupunun yaradılması qərara alınıb.

İclasda 2022-ci il üzrə təsdiq olunmuş fəaliyyət planına daxil olan tədbirlər, onların icrası sahəsində görülmüş işlər qeyd olunub, plan üzrə görüləcək işlər müzakirə edilib.

## Palçıq vulkanlarına asfalt yol



**Dövlət başçısının tapşırığına uyğun olaraq, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi (AAYDA) tərəfindən mütəmadi olaraq yol infrastrukturunun daha da müasirləşdirilməsi istiqamətində mühüm tədbirlər həyata keçirilir. Respublika yollarının inşası və yenidən qurulması layihələrinin icrası vətəndaşların sosial rifah halına müsbət təsir göstərən sahələrin inkişafına hesablanır.**

Bu istiqamətdə AAYDA tərəfindən Abşeron rayonunda yerləşən palçıq vulkanlarının ərazisində müasir turizm infrastrukturuna gedən avtomobil yolunun tikintisi işləri icra olunaraq yekunlaşdırılıb.

Layihə çərçivəsində 3-cü texniki dərəcəyə uyğun inşa edilən, ümumi uzunluğu 21 kilometr olan yeni yolun torpaq yatağının eni 12 metr, asfalt-beton örtüyünün eni isə 8 metr təşkil edir.

Görülən işlər çərçivəsində yolboyu torpaq yatağı və yol əsası inşa edilib. Suların ötürülməsini təmin etmək məqsədilə müxtəlif ölçülü suötürücü borular təmir olunub, zəruri yerlərdə yenilənib. Daha sonra yola 2 laydan ibarət 7 sm qalınlıqda yeni asfalt-beton örtüyünün döşənməsi və yol çiyinlərinin tikintisi işləri icra olunub.

Bərabər olaraq hərəkətin normal təşkili üçün yolboyu yol nişanları, siqnal dirəkləri quraşdırılıb. Layihənin sonuncu mərhələsində isə yolcizgi və yolgöstərici xətlərinin çəkilməsi işləri aparılıb.

Qeyd edək ki, paytaxtdan cəmi 20-25 kilometr aralıda palçıq vulkanları yerləşən ərazidə salınması nəzərdə tutulan turizm kompleksinə gediş-gəlişi asanlaşdırmaq məqsədilə inşa edilən yol tərtib olunmuş qrafiklə və yüksək keyfiyyətlə Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin rəhbərliyinin birbaşa nəzarəti altında "İnşaat Norma və Qaydaları"nın tələblərinə əsasən inşa olunub.

## Hadrutda televiziya stansiyası istismara veriləcək

**Yaxın zamanlarda Hadrutda televiziya stansiyasının istismara verilməsi planlaşdırılır. Trend-in məlumatına görə, bunu rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Rövşən Rüstəmov deyib.**

Onun sözlərinə görə, Qarabağda kommunikasiya xətlərinin tikintisi plana uyğun davam edir. "Artıq IT infrastrukturunun tikintisi üzrə işlərin böyük hissəsi görülüb", - deyə R.Rüstəmov bildirib.

## Koreya Azərbaycanda kəhrizlərin bərpasına 1,2 milyon dollar ayırıb

**Koreya hökuməti Azərbaycanda kəhrizlərin bərpası layihəsinə 1,2 milyon dollar vəsait ayırıb.**

Trend-in məlumatına görə, bunu "Azərbaycanda kəhriz su sistemlərinin bərpası vasitəsilə məcburi köçkünlərin məskunlaşdığı ərazilərdə kənd yerlərinin kompleks inkişafı" layihəsinə həsr olunmuş beynəlxalq konfransda Koreya Beynəlxalq Əməkdaşlıq Agentliyinin ölkə üzrə direktoru Moon Jong Hyun deyib.

O bildirib ki, bu layihə tamamlandıqdan sonra 8 min məcburi köçkün öz yurd-yuvalarında təmiz su ilə təmin olunacaq.

## Turizm sektoru getdikcə canlanır

**Dövlət Sərhəd Xidmətinin məlumatına əsasən, 2022-ci ilin yanvar-aprel aylarında Azərbaycana dünyanın 151 ölkəsindən 330,6 min və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə iki dəfə çox əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlmişdir.**

Gələnlərin 26,2 faizi Rusiya Federasiyası, 25,3 faizi Türkiyə, 14,7 faizi İran, 6,1 faizi Gürcüstan, 3,2 faizi Ukrayna, 2,6 faizi Səudiyyə Ərəbistanı, 2,4 faizi Birləşmiş Ərəb Əmirlikləri, hər birindən 1,9 faiz olmaqla Hindistan və Pakistan, 1,5 faizi Qazaxıstan, 1,3 faizi Küveyt, 1,2 faizi Böyük Britaniya, 11,7 faizi digər ölkələrin vətəndaşları olmuşdur.

2021-ci ilin yanvar-aprel ayları ilə müqayisədə Avropa İttifaqına üzv ölkələrdən gələnlərin sayı 2,7 dəfə artaraq 16 min nəfər, körfəz ölkələrindən gələnlərin sayı 2,6 dəfə artaraq 73,2 min, MDB ölkələrindən gələnlərin sayı 1,8 dəfə artaraq 110,7 min nəfər təşkil etmişdir.

Keçən ilin yanvar-aprel ayları ilə müqayisədə xarici ölkələrə gedən Azərbaycan Respublikası vətəndaşlarının ümumi sayı 2,5 dəfə artaraq 400,2 min nəfər olmuşdur. İrana gedən vətəndaşlarımızın sayı 4,7, Türkiyəyə gedənlərin sayı 2,6, Gürcüstana gedənlərin sayı 2,1, Rusiya Federasiyasına gedənlərin sayı isə 1,9 dəfə artmışdır. Ölkə vətəndaşlarının 45,5 faizi Türkiyəyə, 16,7 faizi Rusiya Federasiyasına, 13,1 faizi İrana, 8,2 faizi Gürcüstana, 16,5 faizi digər ölkələrə səfər etmişdir.

## Trans-Xəzər Nəqliyyat Dəhlizinə maraq artıb



### İndi dünya alternativ kimi bu marşrutu seçir

**Bütün dünyada ticarətin intensivliyini təmin edən marşrutlara üstünlük verilməsi təsadüfi deyil. Çünki yüklərin tez, təhlükəsiz və ucuz çatdırılması yük göndərən və qəbul edən tərəflərin marağında olan əsas məsələdir.**

Hazırda dünya ticarətinin 80 faizi okean və dənizlər üzərindən həyata keçirilir. Yüklərin gəmi ilə uzaq məsafələrə daşınması iki mühüm cəhətə görə ticarət tərəfdaşları üçün sərfəli deyil. Belə ki, su marşrutu ilə yüklər alıcılara gec çatır, üstəlik, xərclər dəmir yolu ilə daşınmadan baha olur. Ticarət tərəfdaşları qeyd edilən iki mühüm səbəbə görə alternativ yollara üstünlük verirlər.

Su yolu ilə yüklərin daşınması həm də təhlükəlidir. Süveyş kanalında baş verən gəmi qəzası zamanı bunun şahidi olduq. Məlum oldu ki, Şərqdən Qərbə və ya əksinə olan bu mühüm beynəlxalq marşrut təhlükəsilzik baxımından etibarlı deyil. Qəza nəticəsində dünya iqtisadiyyatına milyardlarla dollar ziyan dəydi.

Çevik ticarətin aparılması isə öz növbəsində iqtisadi inkişafı stimullaşdıran başlıca şərtlərdən biridir. Belə ki, istehsalçı hazırladığı məhsulu vaxtında satmalıdır ki, əldə etdiyi vəsaitlə öz işini ahəng pozulmadan davam etdirsin. Bu üzdən istehsalçılar məhsullarının alıcılara tez çatdırılmasında maraqlıdır.

İndiki halda Çinlə Avropa arasındakı ticarət dövriyyəsinin həcmi 1 trilyon dollar civarındadır. Ümumilikdə Asiya ilə Avropa arasındakı ticarətin həcmi daha çoxdur.

Rusiya-Ukrayna savaşı dünya ticarətinin normal aparılmasına da mənfi təsir göstərib. İki dövlət arasında gedən müharibə bu ölkələrdən keçən ənənəvi marşrutların fəaliyyətini iflic edib. Bu səbəbdən alternativ marşrutlara maraq artıb. Hazırda Trans-Xəzər Beynəlxalq Nəqliyyat Dəhlizi ən etibarlı və iqtisadi baxımdan sərfəli marşrut kimi diqqəti özünə cəlb edir.

Bu nəqliyyat dəhlizi ilə daşınan yüklərin müddətini 12 gündən 10 günə endirmək mümkündür. Bu fikri Türkiyənin nəqliyyat və infrastruktur naziri Adil Qaraismayıloğlu Ankarada keçirilən "Beynəlxalq Transxəzər Nəqliyyat Marşrutu" Beynəlxalq Assosiasiyası Hüquqi Şəxslər Birliyinin Rəyasət Heyətinin ümumi yığıncağının növbəti toplantısında bildirib. Bu, hazırda marşrutun cəlbediciliyini artırmaq üçün onun keçdiyi ölkələr tərəfindən hədəf kimi qarşıya qoyulub.

Nazir həmçinin vurğulayıb ki, Rusiya-Ukrayna müharibəsi Şimal dəhlizi ilə yükdaşımaları məhdudlaşdırıb. Odur ki, Orta Dəhliz məsafə və müddət baxımından böyük alternativ sayılır: "Anadolunun Qərbindən başlayaraq Şərqə uzanan bu yol ticarətin fərqli qitələrə, hətta dünyaya yayılmasına imkan verir. Çindən Avropaya gedən yük qatarı Orta Dəhlizi və Türkiyəni seçərsə, 12 gün ərzində 10 min kilometr deyil, 7 min kilometr məsafə qət edəcək. Bu da Asiya və Avropa arasında qlobal ticarətdə dəhlizin nə qədər sərfəli və təhlükəsiz olduğunu nümayiş etdirir. Belə ki, Süveyş kanalı üzərindən gəmi 20 min kilometr yol qət edir. Orta Dəhliz öz imkanları və region ölkələrinin koordinasiyalı əməkdaşlığı ilə dünya ticarətinin ən mühüm həlqələrindən biri olacaq. Biz Orta Dəhlizi daha da gücləndirəcəyik".

Onu da deyək ki, Trans-Xəzər Beynəlxalq Nəqliyyat Dəhlizi 2014-cü ilin fevral ayında Azərbaycan, Qazaxıstan və Gürcüstanın müvafiq strukturlarının iştirakı ilə yaradılıb. Sonradan layihəyə Ukrayna, Rumıniya və Polşa da qoşulub. Hazırda marşrut Çin-Qazaxıstan sərhədindən başlayır. Qazaxıstan, Xəzər dəhlizi, Azərbaycan, Gürcüstan ərasizindən keçərək Avropaya qədər uzanır. Bütün marşrut boyunca vahid tarif, "vahid pəncərə" prinsipi tətbiq olunur.

Hazırda dünya ölkələri daşımaların daha ucuz və təhlükəsiz olan quru və dəmir yolu ilə həyata keçirilməsinə maraq göstərir. Bunun üçün mövcud və alternativ marşrutların imkanları araşdırılır. Belə olan halda Bakı-Tbilisi-Qars dəmir yolunun əhəmiyyəti daha da artacaq. Zəngəzur dəhlizinin açılması ilə həm "Şərq-Qərb", həm də "Şimal-Cənub" nəqliyyat dəhlizlərinin imkanları genişlənəcək. Belə ki, nəqliyyat dəhlizlərinin şaxələnməsi yükdaşımaların etibarlılığını artıran mühüm faktordur.

Ermənilər və onların havadarları Zəngəzur dəhlizinin açılmasına hər vəchlə mane olmaq istəyirlər. Bu da səbəbsiz deyil. Çünki Zəngəzur dəhlizinin açılması Azərbaycanla Türkiyənin dünyada siyasi əhəmiyyətini daha da artıracaq. Bununla yanaşı, hər iki ölkə dünyada gedən siyasi proseslərə təsir göstərmək imkanı da qazanacaq. Prezident İlham Əliyev layihəyə əngəl törətmək istəyən qüvvələrə qəti şəkildə xəbərdarlıq edərək demişdir: "İndi Ermənistan Zəngəzur dəhlizinin icrasına əngəl törətmək istəyir. Amma nail ola bilməyəcək. Məcbur edəcəyik onları, məcbur edəcəyik. Necə ki, qovmuşuq torpaqlarımızdan, bütün istədiyimizə nail olacağıq".

Vətən müharibəsində qazandığımız tarixi qələbə ölkəmiz üçün yeni inkişaf perspektivləri açmaqla yanaşı, onun dünyadakı siyasi çəkisini daha da artırdı. Məsələn, nəqliyyat sahəsində əldə edəcəyimiz yeni Zəngəzur dəhlizi ölkəmizə böyük imkanlar qazandıracaq. Belə ki, Çinin dünyaya açılma siyasətinin beynəlxalq aləmin diqqət mərkəzində olması faktdır. Avropa İttifaqı da Çinlə iqtisadi əlaqələrə böyük əhəmiyyət verir. Çünki Çin hazırda dünyanın nəhəng ixracatçılarındandır və dünya bazarına ildə təxminən 2 trilyon 400 milyard dollar dəyərində məhsul çıxarır. Bu səbəbdən də yeni nəqliyyat marşrutlarının yaradılması barədə təşəbbüslə çıxış edir.

Bu baxımdan 2020-ci il noyabrın 10-da imzalanmış məlum sənədə Prezident İlham Əliyevin tələbi ilə ilk baxışda Dağlıq Qarabağ münaqişəsinə aid olmayan, lakin ölkəmiz və region üçün çox vacib olan 9-cu maddənin salınması mühüm diplomatik qələbə sayılmalıdır. Həmin maddə Naxçıvanla birbaşa əlaqənin bərpasına imkan verir ki, bu da ilk növbədə muxtar respublikanın nəqliyyat blokadasından çıxması deməkdir.

Azərbaycandan Naxçıvana dəmir yolu əlaqəsinin bərpası həm də "Şərq-Qərb", "Şimal-Cənub" dəhlizləri ilə bağlı yeni şərait yaradır. Prezident İlham Əliyevin bu siyasi gedişi gələcəyə hesablanmış nəhəng geosiyasi və iqtisadi layihə kimi mühüm əhəmiyyət daşıyır. Çünki marşrutun fəaliyyətə başlaması Azərbaycanın mövcud nəqliyyat ötürücü imkanlarını daha da artıracaq. Bu, ölkəmizə geniş iqtisadi imkanlarla yanaşı, böyük siyasi dividendlər gətirəcək. Əvvəla ona görə ki, Azərbaycan-Naxçıvan marşrutu mövcud Bakı-Tbilisi-Qars dəmir yolu marşrutundan qısadır və bu həm yük göndərən, həm də yük qəbul edən tərəflər üçün sərfəlidir. Dövlətlərarası ticarətdə bu faktora xüsusi önəm verirlər, çünki məsafə qısaldıqca daşınma xərcləri ucuzlaşır. Digər mühüm əhəmiyyət daşıyan fakt isə odur ki, alternativi çox olan hər bir marşrut daha etibarlı sayılır. Məsələn, hər hansı bir səbəbdən - istər siyasi, istərsə də təbii, yaxud texnogen qəzalar üzündən Bakı-Tbilisi-Qars marşrutu fəaliyyətini dayandırarsa, yüklərin Çindən Avropaya daşınması üçün Azərbaycan-Naxçıvan-Türkiyə marşrutundan istifadə etmək mümkün olacaq.

Məlumdur ki, Azərbaycan "Şərq-Qərb", "Şimal-Cənub" və "Şimal-Qərb" nəqliyyat dəhlizləri kimi regional bağlantıda mühüm mövqeyə malikdir. Ölkəmiz artıq Avrasiyanın əsas və etibarlı nəqliyyat və logistika mərkəzlərindən birinə çevrilib. Dünyanın bir çox ölkəsi bu reallığı qəbul edib Azərbaycanla nəqliyyat sahəsində əməkdaşlığa üstünlük verir. Vaxtilə Azərbaycana bu işdə siyasi əngəl törədən ölkələr indi bizimlə iqtisadi əməkdaşlığa can atırlar.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

Kitab Mərkəzindən reportaj







# Paris Bakının yanında şəhər deyilmiş

**Bəzən yorulursan və ruhunun dincəlməsi üçün fərqli bir dünyaya ehtiyacın olur. Fərq eləmir ki, uşaqsan, ya böyük, gəncsən, ya qoca. Sadəcə, həyatın vərdiş etdiyin yeknəsəq axarından qopub ayrılaraq başqa, ecazkar aləmə qovuşmağa can atırsan. Sizə bəlkə də qəribə gələcək, düşünəcəksiniz ki, belə məkanlara ya nağıllarda, ya da rəngli yuxularda səyahət etmək mümkündür.**





Amma tələsməyin, dediklərim əfsanə kimi gəlsə də, reallıqlarla bağlıdır. Artıq dördüncü ildir ki, "Sahil" metrosunun yaxınlığında nağıl dünyasının rəmzi sayıla biləcək Bakı Kitab Mərkəzi fəaliyyət göstərir. Üzeyir bəy Hacıbəyli və Qoqol küçələrinin kəsişməsindəki binada yerləşən bu mərkəzin sahəsi təxminən 2500 kvadratmetrdir.

Heydər Əliyev Fondunun təşəbbüsü və dəstəyi ilə yaradılmış bu mərkəzdə kitab satışına tamamilə fərqli bir konsepsiya ilə yanaşılmışdır. Bakı Kitab Mərkəzində Azərbaycan, rus, türk, ingilis, fransız, alman, ərəb və digər dillərdə istənilən janrlarda kitablar təqdim olunur. Burada gəzdikcə həqiqətən də bu vaxta qədər görmədiyin nağıla bənzəyən kitab aləminə qovuşduğunu hiss edirsən. Sanki sevdiyin əsərlərin qəhrəmanları da uzaq keçmişdə yox, sənin yanında, bircə addımlığındadırlar.

Kitab Mərkəzinin 1-ci və 2-ci mərtəbələrində Heydər Əliyev Fondunun nəşrləri öz yerini tapmışdır. Burada ziyarətçilərə, həmçinin "I love Baku" brendinin rəngarəng suvenirləri və "Azərmarka" şirkətinin məhsulları təqdim olunur. Həm də ürəyin istəyən, ruhunla uzlaşan əsərləri alıb oxuya bilərsən. Mərkəz elə düşünülüb, ele dizayn edilib ki, uşaqlar da, gənclər də, hətta yaşlı adamlar belə burada öz dünyalarına uygun əfsanəvi mühit qura bilirlər. Ürəyin istəyirsə, uzaq keçmişi xatırladan nalçaları altına at, nəvələrini də yığ başına, birlikdə kitab oxuyun. Ya da çıx pəncərəyə, altına döşəkçə at, kürəyini balışa söykə və oxuduğun kitabdakı qəhrəmanlarla səyahətə çıx.

Birinci mərtəbədə səni dadlı kofe, ikinci mərtəbədəki oxu zalında isə nadir kitablar gözləyir. Burada hər kəsin yaşına uyğun oxu zalları qurulub və hətta zəif görmə qabiliyyəti olanların da, alimlərin də fərqli guşələri mövcuddur.

O da sirr deyil ki, Azərbaycan oxucuların azlığına görə seçilən ölkələrdəndir, yəni bizdə kitab oxuyan, mütaliə edən azdır. Bakı Kitab Mərkəzinin əsas məqsədi mütaliəyə marağı artırmaq, yeni bir dünyanın qapılarını ziyarətçilərin üzünə açmaqdır.

Burada görüşüb söhbət etdiyimiz adamlardan biri - Müslüm kişi danışır ki, 3 yaşından 9 yaşınadək 5 nəvəsi var: "Bura hamımızın sevdiyi yerdir. Gəlirik, kitabları seçirik, oxumağı bilənlər bilməyənlər üçün oxuyur". Onun balaca nəvəsindən soruşuram ki, burada xoşuna gələn nədir? Bir əlini yerə, o birisini göyə sarı uzadıb heyrətini gizlətmir: "Yerdən göyə kimi hər yan kitabdır!"

Ellada xanım deyir ki, burada saatlarla oturub sevdiyi əsərləri oxuyur, Bakı Kitab Mərkəzi gözəl düşünülmüş uğurlu layihədir.

Neçə vaxtdır ki, nəvəmlə "Balaca şahzadə"ni oxuyub qurtara bilmirik. Mən oxumağa başlayan kimi hay-küy salır ki, dayan, düz oxumursan və dalını özü qoşur. İndi fikirləşirəm ki, birlikdə gəlsək, burada sakit duracaq, ona görə ki, heç bir uşağın burada səsi belə çıxmır. Fransaya sətirlərin qanadında səfərimiz baş tutacaq.

Bakı Kitab Mərkəzini tərk edəndə soruşuram ki, iş vaxtı saat neçədə bitir? Cavab verdilər ki, axşam saat 10-na kimi. Gülümsəyirəm, bir əhvalat yadıma düşür.

Tələbəlik illərində kursumuzun rəhbəri İvan İvanoviç Safonov Fransaya getmişdi. O vaxtı kapitalist dünyasına səyahət edən az olurdu. O qayıdandan sonra doluşduq otağına ki, İvan İvanoviç, Paris sizi heyran qoydumu? Çünki Lomonosov Universitetində Parisin necə şəhər olduğunu hamımız yaxşı bilirdik.

Amma Safonov bizi sakit, fikirli və bir qədər də ciddi qarşıladı:

- Uşaqlar, mən deyim, siz də heç zaman unutmayın, Paris ümumiyyətlə, şəhər deyilmiş!!!

Təəccübləndik və heyrətlə soruşduq ki, niyə, İvan İvanoviç?

Safonov qanıqara cavab verdi: "Təsəvvür edirsinizmi Fransanın paytaxtında kitabxanalar saat 6-ya kimi işləyir! O şəhərdə ki, saat 6-da kitabxanalar bağlanır, ora şəhər deyil!

İndi bizim kursun rəhbərinin təbirincə desək, kitabxanaları saat 6-da bağlanan Paris doğrudan da kitabxanası axşam saat 10-a kimi işləyən Bakının yanında şəhər deyil.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***













# Zəfərin, qələbənin bədii təcəssümü




Hələ tələbəlik illərindən mətbuatda Qarabağ müharibəsi, döyüşlər, əsgər həyatından bəhs edən məqalələri dərc olunurdu. Zabit Vahid Məhərrəmov hərbi jurnalist kimi tez-tez cəbhə bölgələrinə gedir, döyüşlərin canlı şahidi olurdu.

Sonralar da müharibənin gerçək üzü, Azərbaycanın igid döyüşçüləri haqqında yazmaqda davam etdi. İsti-isti qələmə aldığı publisistik və bədii yazıları sonralar kitablara çevrildi.

Hekayələr, publisistik məqalələr, esselər və digər janrlı əsərlərinin toplandığı "Müharibənin bir ili", "Səngərdə yazılmış sətirlər", "Qələbə naminə", "Ölməzlik zirvəsi", "Pulemyotçu Nurəddin", "Erməni əsirliyindən dönənlər", "Qanlı gecə - qanlı tarix", "Hər addım uğrunda", "Kəsilməyən atəş səsləri", "Müharibənin qanlı kölgəsi", "Ölməzlik yolunun yolçusu" kitablarında müəllif gördüyü, müşahidə etdiyi müharibənin dəhşətlərini əks etdirdi. Tənqidçi və ədəbiyyatşünaslar Vahid Məhərrəmovun yüksək bədii dəyərə malik olan əsərlərinin vətənpərvərlik hisslərinin aşılanmasında, gənc nəslin dünyagörüşünün formalaşmasında böyük rol oynadığından söz açırlar.

O, illər boyu yalnız müharibənin ölüm qoxusundan, ağrı-acılarından yazmadı. Vahid Məhərrəmovun publisistik məqalələrindən, bədii əsərlərindən daim bir yurd həsrəti boylandı. Dünyaya gəldiyi, boya-başa çatdığı Zəngilan rayonunun Babaylı kəndinin 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilməsi ilə başladı bu nisgil. Ancaq onun yazılarından heç vaxt ümidsizlik, inamsızlıq duyulmadı. Yalnız doğma kəndinin deyil, düşmən işğalında qalan bütün Vətən torpaqlarının dərdini, xiffətini, həsrətini qəlbində daşıyan və qələmə alan Vahid Məhərrəmov Azərbaycanın qalib gələcəyi barədə hər zaman inamla yazdı. 2020-ci ildə Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandan İlham Əliyevin komandanlığı altında bu inamı, bu arzunu reallaşdırdı. İgid zabit və əsgərlərimiz döyüşlərdə misilsiz qəhrəmanlıqlar göstərərək torpaqlarımızı Ermənistan silahlı qüvvələrinin işğalından azad etdilər.

Hərbi jurnalist Vahid Məhərrəmov artıq həsrətə qalib gələn, hər bir azərbaycanlının qəlbini sevindirən, üzünü güldürən qələbə sevincindən yazır. Bu mənada, onun "Elimizə qayıdırıq" adlı kitabı digər kitablarından fərqlənir. Vətən müharibəsində şəhid olanların xatirəsinə həsr edilən bu kitabda müəllifin son illərdə qələmə aldığı hekayələr, publisistik məqalələr, esselər və "Qismət" povesti yer alıb. Kitabda fərqli janrlarda yazılmış əsərlər toplansa da, Vətənə bağlılıq, yurd sevgisi ana xətt kimi keçir. Vətən müharibəsindən sonra işıq üzü görmüş kitabda zəfər qüruru və böyük qayıdışın sevinci bədii əksini tapıb.

Kitabdakı ilk yazı - "Zəngilanım, görüşünə az qalıb..." qələmə alınanda hələ zəfər günlərimizin sorağındaydıq. Erməni silahlı qüvvələrinin işğalında olan doğma kəndinə uzaqdan baxmaq məcburiyyətində qalan müəllif yazırdı: "Dədə-baba ocaqlarımız gündüzlər fikrimizdən, gecələrsə yuxularımızdan çıxmayıb. Həsrət dolu illər bir-bir doğmalarımızı, əzizlərimizi əlimizdən alıb aparır. Onlar erməni işğalında qalmış ata-baba yurdlarımızın həsrətini çəkə-çəkə dünyadan köçürlər. Demək olar ki, hər gün ağrılarımızın üstünə ağrı, dərdlərimizin üstünə dərd gəlir". O zaman dağıdılmış, yandırılmış, yerləyeksan edilmiş kəndlərimizə baxdıqca ürəyindən qara qanlar axan müəllif əminliklə bildirirdi ki, biz qan çilənmiş yollarımızı ermənilərdən təmizləyəcək, işğala son qoyacağıq. İnanırdı ki, Azərbaycan əsgəri düşmən üzərinə hünərlə, cəsarətlə və qətiyyətlə gedəcək, güllələrimiz hədəfdən yayınmayacaq. 2019-cu ilin iyununda qələmə aldığı bu mövzuya Vahid Məhərrəmov 2020-ci ildə yenidən qayıdıb. Bu dəfə isə hər sətirdən kədər yox, sevinc duyulur.

İllərin ayrılığının bitməsi, yurda qovuşmağa az qalması "Elimizə qayıdırıq" adlı yazıda kövrək duyğularla qələmə alınıb. "Qayıdırıq... Bu sözdə nə qədər həsrət yükündən azad olmaq var, nə qədər nisgildən qurtuluş var, nə qədər sevincə bürünmüş göz yaşı var". Müəllif igid zabit və əsgərlərimizin əks-hücum əməliyyatları zamanı erməni qəsbkarlarına havadan, yerdən sarsıdıcı zərbələr endirə-endirə torpaqlarımızı azad etdiklərinin, yaşayış məntəqələrimizin bir-birinin ardınca Ermənistan silahlı qüvvələrindən təmizləndiyinin iftixarı ilə yazıb: "İşğaldan azad olunduğuna görə doğma ocaqlarımızın da üzü gülür. İntizarla əsl sahiblərinin gəlişini gözləyir. İndi kəklikli, qırqovullu dərələrimizin, xınalı qayalarımızın, ot basmış cığırlarımızın gözləri yollarda qalıb. Ey doğma ocaqlar, ey doğma ellər, gözünüz yollarda çox qalmasın, ürəyimizdəki həsrət yükünü sevinclə yuya-yuya, yaxın vaxtlarda qoynuna qayıdacağıq. Bundan sonra heç vaxt səndən ayrılmayacaq, baş-başa verib birlikdə yaşayacağıq".

Düşmən işğal illərində o yerlərdəki evlərimizi uçurub dağıtdı, ağaclarımızı kəsdi, sərvətlərimizi taladı. Ancaq Vahid Məhərrəmovun da yazdığı kimi, torpağımızı, dağ-dərələrimizi, çaylarımızı, göllərimizi özü ilə apara bilmədi.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

# Görkəmli alim, fəxri neftçi

## Həmkarı onun həyat yoluna özünün yeni kitabı ilə işıq salıb

**XX əsrin ortalarından başlayaraq Azərbaycan bilavasitə dənizdən neft çıxarır. Həmin vaxtdan bəri Xəzərin qoynunda kəşf olunan yataqların sayı getdikcə çoxalıb və indi hasil edilən karbohidrogenlərin əksər hissəsi dənizin payına düşür.**



Məlumdur ki, dənizdən neft və qazçıxarmanı həyata keçirmək üçün estakada və meydançalar, bünövrə və dayaqlar, digər qurğular polad konstruksiyalardan hazırlanır. Bunlar isə zaman-zaman korroziyaya uğrayır. Odur ki, dəmir qurğuların korroziya ilə mübarizəsinə xidmət edən elmi əsərlər böyük əhəmiyyət daşıyır.

Azərbaycanın görkəmli kimyaçı alimi, texnika elmləri doktoru, professor Anaxanım Xanlarova (1915-2007) özünün 60 ildən çox davam edən dərin elmi axtarışlarını, əsasən, bu sahəyə həsr etmişdir. Təsadüfi deyil ki, o, fəxri neftçi idi, keçmiş SSRİ qaz sənayesinin fəxri işçisi adına layiq görülmüşdü.

Anaxanım Xanlarova elmin zirvəsinə çatan yolu zəhmətlə keçmişdi. O, yorulmaz elmi fəaliyyəti nəticəsində çoxsaylı ixtiralara, texniki yeniliklərə, səmərələşdirici təkliflərə imza atmışdır.

Bakı şəhərində anadan olan Anaxanım orta məktəbi bitirdikdən sonra sənaye texnikumunda təhsil almış, daha sonra Azərbaycan Dövlət Universitetinin (indi BDU) Kimya fakültəsini bitirmişdir. O, uzun illər AMEA sistemində, eləcə də "Dənizneftqazlayihə" Elmi-Tədqiqat və Layihə İnstitutunda müxtəlif vəzifələrdə çalışaraq elmi axtarışlarından bir gün belə ayrılmamışdır.

"Anaxanım Xanlarova. Həyat və yaradıcılığı" kitabı, adından da göründüyü kimi, görkəmli alimin mənalı ömür yoluna işıq salır. Kitabın müəllifi Anaxanım Xanlarovanın həmkarı, kimya üzrə fəlsəfə doktoru Rəsul Rəxşanlıdır (Əhmədov). Kitabda bir daha vurğulanır ki, istedadlı kimyaçı-alim A.Xanlarova böyük nailiyyətlər qazanmağa müvəffəq olmuşdur. O, "korrozionist" kimi tanınmış və sahənin mütəxəssisləri arasında böyük nüfuz qazanmışdır. Alimin metalların korroziyası və korroziyadan mühafizəsi sahəsindəki elmi nailiyyətləri yüksək dəyərləndirilmişdir. Belə ki, yenilikçi-alim neft-mədən qurğularının korroziyadan mühafizəsinin yeni üsullarını yaratmaqla və bu üsulların tətbiqinə nail olmaqla onların təmirlərarası müddətini iki dəfədən artıq azaltmağın yollarını tapmışdır. Bu, sanballı elmi tapıntı olmaqla yanaşı, həm də böyük iqtisadi səmərə deməkdir.

Professor Xanlarovanın rəhbərliyi və bilavasitə iştirakı ilə təkcə hidrotexniki dəniz qurğularının qorunması sahəsində işlənib hazırlanmış yeniliklərin 1964-1994-cü illərdə SSRİ miqyasındakı tətbiqindən əldə edilmiş iqtisadi səmərinin 200 milyard rubl olduğu müəyyənləşdirilmişdir. Sovet dönəmində rublun dəyərinin ABŞ dollarına nisbətən üstünlük təşkil etdiyi nəzərə alınarsa, həmin iqtisadi səmərənin əhəmiyyəti daha aydın görünər.

Görkəmli şəxsiyyətlərimizin, o cümlədən alimlərimizin həyat və yaradıcılığını öyrənməli və dəyərləndirməliyik. Çünki onların keçdiyi yol xalqımızın tarixindən ayrılmazdır. Bu baxımdan R.Rəxşanlının alimə həsr etdiyi kitab da xüsusi önəm daşıyır.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# AZAL və LOT aviaşirkətləri səmərəli əməkdaşlıqdan məmnun olduqlarını bildirdilər

**"Azərbaycan Hava Yolları"nın Mətbuat xidmətindən verilən məlumata görə, "AZAL"ın prezidenti Cahangir Əsgərovun dəvəti ilə "LOT" aviaşirkətinin baş icraçı direktoru və İdarə Heyətinin sədri Rafal Milçarskinin (Rafal Milczarski) başçılıq etdiyi Polşa nümayəndə heyəti mayın 26-da Bakıya işgüzar səfərə gəlib.**



"Azərbaycan Hava Yolları"nın ofisində keçirilən, Azərbaycanın Polşadakı səfiri Nərgiz Qurbanovanın da iştirak etdiyi görüşdə Cahangir Əsgərov və Rafal Milçarski ikitərəfli əməkdaşlığın perspektivlərini müzakirə ediblər.

Tərəflər hava əlaqəsinin başlanması münasibətilə bir-birini təbrik edərək, reyslərin davamlı yerinə yetirilməsinə ümid etdiklərini bildirmişlər. İki ölkə arasında uçuşların başlanması turizm axınını artırmağa və Azərbaycanla Polşa arasında işgüzar əlaqələri genişləndirməyə imkan verəcək.

Polşa aviadaşıyıcısı mayın 28-də Varşavadan Heydər Əliyev Beynəlxalq Aeroportuna ilk reysini həyata keçirəcək. Uçuşlar həftədə 4 dəfə yerinə yetiriləcək.

"AZAL"ın prezidenti Cahangir Əsgərov ölkənin bütün yeddi beynəlxalq hava limanında beşinci və yeddinci dərəcəli "hava azadlığı" rejiminin tətbiq olunduğunu xüsusilə xatırladıb. Bu hava azadlığı dərəcələri xarici aviadaşıyıcılara Azərbaycan aviaşirkətləri ilə bərabər hüquqlar təqdim edir və Azərbaycanın hava limanları vasitəsilə tranzit reyslər yerinə yetirmək imkanı yaradır.

"LOT" aviaşirkətinin rəhbəri Rafal Milçarski Azərbaycan və Polşa arasında reyslərin yerinə yetirilməsinə böyük maraq göstərdiyini qeyd edib. Onun sözlərinə görə, müntəzəm reyslərin yerinə yetirilməsi hər iki ölkənin qarşılıqlı faydalı maraqlarının inkişafına təkan verəcək.

Görüşün sonunda qonaqlara beşulduzlu Heydər Əliyev Beynəlxalq Aeroportunun imkanları, xüsusilə təyyarələrə göstərilən yerüstü xidmət, digər müxtəlif xidmətlərin fəaliyyəti və aerovağzal kompleksində sərnişinlər üçün yaradılmış rahat şərait nümayiş etdirilib.


# OXUCULARIN NƏZƏRİNƏ!
# "AZƏRBAYCAN"

*qəzetinə 2022-ci il üçün*
*abunə yazılışı kampaniyası davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.**
**Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | (012) 598-49-55, (051) 225-02-13 |
| *"Qaya" firması* | (012) 566-77-80, (050) 214-40-53 |
| *"Region Press" MMC* | (055) 316-79-01, (050) 316-79-01 |
| *"Səma-M" MMC* | (012) 594-09-59 |
| *"Ziya" LTD* | (012) 497-76-96, (050) 306-77-22 |
| *"Pressinform" MMC* | (012) 598-49-52, (070) 340-01-00 |
| *"City press" MMC* | (055) 819-09-26 |

*1 illik*
124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat

*6 aylıq*
62,40 (altmış iki manat qırx qəpik) manat

*3 aylıq*
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**


◆ Dünya gündəmi

# BMT həyəcan təbili çalır

## Dünyada 10 həftəlik buğda ehtiyatı qalıb





**Dünya anbarlarında təxminən 10 həftəlik buğda ehtiyatları qalıb. Bu barədə BMT Təhlükəsizlik Şurasında qida təhlükəsizliyi üzrə ekspert Sara Menker məlumat verib. Onun dediyinə görə, bir-biri ilə münaqişə aparan Rusiya və Ukrayna taxılın ümumi həcminin təxminən üçdəbirini istehsal edirdi. Bununla belə Menker vurğulayıb ki, Rusiya Federasiyasının xüsusi hərbi əməliyyatı qlobal qıtlığın əsas səbəbi deyil.**

### Problem tezliklə aradan qalxmayacaq

Ekspert hesab edir ki, COVID-19 pandemiyasından çox əvvəl aşkar edilən böhran təchizat zəncirlərinin kövrəkliyini üzə çıxarıb. "Münaqişə sabah bitsə belə razılaşdırılmış tədbirlər olmadan ərzaq təhlükəsizliyi problemi tezliklə aradan qalxmayacaq", - deyən Menker xatırladıb ki, hazırda təxminən 400 milyon insan qida riski zonasındadır. İndi təkcə Ukraynada baş verən hadisələr fonunda deyil, həm də gübrələrə çıxışın məhdudluğu və bir çox bölgədə davam edən quraqlıq səbəbindən dünyanın indiyə qədər gördüyü ən aşağı həcmdə taxıl ehtiyatı var.

2022-ci ildə gözlənilən rekord buğda məhsuluna baxmayaraq, Rusiya tənzimləyiciləri taxıl ixracına Avrasiya İqtisadi Birliyi (AİB) səviyyəsində nəzarət etməyə çalışırlar. İndi Rusiya AİB üzvlərinə taxıl ixracına kvota və rüsumlar tətbiq etməyi təklif edir.

Menkerin fikrincə, bu gün vəziyyət 2007-ci və 2008-ci illərdəkindən daha ağırdır. Hazırda dünyada indiyə qədər görünməmiş taxıl ehtiyatlarının ən aşağı səviyyəsini yaşayırıq, halbuki gübrəyə çıxış ciddi şəkildə məhduddur və buğda əkən rayonlarda son 20 ildə ən ekstremal quraqlıq var. Oxşar ehtiyat problemləri qarğıdalı və taxıla da təsir edir.

### 44 milyon insan kritik vəziyyətdədir

BMT-nin Baş katibi Antonio Quterreş Ərzaq təhlükəsizliyi ilə bağlı hesabatında Rusiyanın Ukraynada keçirdiyi xüsusi hərbi əməliyyat səbəbindən 38 ölkədə 44 milyon insanın kritik vəziyyətdə olduğunu bildirib.

Onun dediyinə görə, müharibə 400 milyon insanı ərzaqla təmin edən Ukrayna ixracatını bağlayıb. Baş katib vurğulayıb ki, əsas ərzaq məhsullarının qiymətinin 30 faiz artması Afrika və Yaxın Şərq əhalisini təhdid edir, ona görə də ən vacib məsələ Ukraynada münaqişəni dayandırmaqdır.

Ukraynanın aqrar siyasət naziri Nikolay Solski isə hesab edir ki, cari ilin iyul ayında dünya ərzaq böhranını kəskin şəkildə hiss etməyə başlayacaq.

G7 ölkələri Rusiya Federasiyasını dünyada ərzaq böhranı təhlükəsi səbəbindən Ukrayna limanlarını dərhal blokdan çıxarmağa çağırıb. Prezident Ofisinin rəhbəri Andrey Yermak bildirib ki, RF Silahlı Qüvvələrinin məhsul yığımına mane olduğu əraziləri azad etmək lazımdır.

Ümumdünya Ərzaq Proqramının icraçı direktoru Devid Bizli vurğulayıb ki, 43 ölkədə 49 milyon insanın "qapısını aclıq döyür" və aclıqla birlikdə siyasi sabitliyin pozulması da gəlir: "Biz artıq Şri-Lanka, İndoneziya, Pakistan, Peruda baş verən iğtişaşlar və etirazların şahidi oluruq və bu hadisələr yalnız gələcəkdə baş verəcək olayların müjdəçisidir".

BMT-nin məlumatına görə, Rusiyanın Ukraynaya genişmiqyaslı müdaxiləsi nəticəsində təxminən 1,7 milyard insan yoxsulluq, ehtiyac və aclıqla üzləşəcək.

### Rusiya gübrələri və ərzaq məhsulları dünya bazarlarına buraxılmalıdır

BMT-nin Baş katibi Antonio Quterreş "Qlobal Ərzaq Təhlükəsizliyi üzrə Yol Xəritəsi - Fəaliyyətə Çağırış" adlı nazirlər görüşündə bildirib ki, ərzaq böhranını həll etmək üçün Rusiya istehsalı olan qida və gübrələrin dünya bazarlarına çıxarılmasına icazə verilməlidir.

Onun dediyinə əsasən, Rusiya hərbi əməliyyatı ondan əvvəl qüvvədə olan və ərzaq böhranına təsir edən bir sıra amillərin, xüsusən iqlim dəyişikliyi və COVID-19 pandemiyasının effektini artırıb. Quterreş Rusiya, Ukrayna və Belarusun gübrə və qida məhsullarının istehsalında lider olduğunu vurğulayıb: "Gəlin açıq deyək ki, Ukraynanın ərzaq məhsulları, habelə Rusiya və Belarusun istehsal etdiyi qida və gübrə dünya bazarlarına reinteqrasiya edilmədən ərzaq böhranının daha effektiv həlli mümkün deyil".

Baş katib qeyd edib ki, Moskva Ukrayna limanlarından ərzaq ixracına mane olmağı dayandırmalıdır. Eyni zamanda Rusiyadan gələn gübrələr və ərzaq məhsulları maneəsiz olaraq dünya bazarlarına buraxılmalıdır. "Mən bu məsələlərlə bağlı Rusiya Federasiyası, Ukrayna, Türkiyə, ABŞ və Avropa İttifaqı, eləcə də bir sıra digər əsas ölkələrlə sıx təmasdayam. Əminəm ki, hələ çox uzun yol var", - deyə BMT-nin Baş katibi bildirib.

Eyni zamanda ABŞ dövlət katibi Entoni Blinken Rusiyaya qarşı sanksiyaların dünyada ərzaq vəziyyətinin pisləşməsinə səbəb olması ilə bağlı ittihamları rədd edib. O bildirib ki, Vaşinqton gübrə və kənd təsərrüfatı məhsulları üçün məhdudlaşdırıcı tədbirlərə istisnalar edib.

Blinken hesab edir ki, beynəlxalq təşkilatlar və müxtəlif ölkələrin hakimiyyət orqanları Ukrayna ərazisindən quru və dəniz yolu ilə ərzaq məhsullarının təhlükəsiz ixracına dəhlizlər açmaq üçün birgə işləyə bilərlər.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

# "Anatolian Phoenix-2022" beynəlxalq təlimində tapşırıqlar uğurla icra olunub

**Türkiyənin Konya şəhərində keçirilən "Anatolian Phoenix-2022" beynəlxalq axtarış-xilasetmə təlimində qarşıya qoyulan tapşırıqlar uğurla icra edilib.**

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, təlim çərçivəsində tapşırıqların xəritə üzərində dəqiqləşdirilməsi və hədəf hesabatı, paraşüt hazırlığı üzrə çalışmalar, helikopterlərlə təlim uçuşları və ssenariyə uyğun olaraq qəza etmiş aviasiya vasitəsi ekipajlarının axtarış-xilasetmə əməliyyatları yerinə yetirilib.



Azərbaycan Respublikası müdafiə nazirinin müavini - Hərbi Hava Qüvvələrinin (HHQ) komandanı general-leytenant Ramiz Tahirov təlimin "Yüksək səviyyəli müşahidəçi günü"ndə iştirak edib.

Azərbaycan HHQ-nin hərbi qulluqçuları ilə görüşən nazir müavini şəxsi heyətin peşəkarlıq səviyyəsini yüksək qiymətləndirib.


## B İ L D İ R İ Ş

**"Azərişıq" ASC tərəfindən 10 mart 2022-ci il** tarixdə "Ağdam şəhərinin ilkin mərhələdə elektrik təchizatının təmin olunması məqsədilə 2 (iki) ədəd (TM №1 və TM №2) 35/0,4 kV-luq 4x2500 kVA gücündə Transformator Məntəqəsinin tikintisi, avadanlıqların quraşdırılması və 35 kV-luq iki dövrəli kabel xəttinin çəkilməsi işlərinin" təkliflər sorğusu üsulu ilə satın alınmasına dair müsabiqədə iştirak edən **"SMART ENERGY SERVİCES" MMC** şirkəti qalib elan olunmuşdur.

Qalib təşkilatla müvafiq satınalma müqaviləsi bağlanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

**"Azərişıq" ASC tərəfindən 15 aprel 2022-ci il** tarixdə "Füzuli şəhəri ərazisində yeni 35/0,4 kV-luq "Füzuli" Rəqəmsal Yarımstansiya və İdarəetmə Mərkəzinin tikintisi, 35 kV-luq iki dövrəli kabel xəttinin çəkilməsi işlərinin" təkliflər sorğusu üsulu ilə satın alınmasına dair müsabiqədə iştirak edən **"Enerji Construction" MMC** şirkəti qalib elan olunmuşdur.

Qalib təşkilatla müvafiq satınalma müqaviləsi bağlanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Elanları 11 mart 2022-ci il tarixdə Azərbaycan Respublikası Mərkəzi Bankının rəsmi internet səhifəsində və dövlət satınalmalarının vahid internet portalında yerləşdirilmiş və elektron satınalmaları proseduru çərçivəsində keçirilmiş açıq tenderlərlə əlaqədar Tender komissiyasının 12 may 2022-ci il tarixli qərarına əsasən Azərbaycan Respublikası Mərkəzi Bankında istifadə olunan server, kompüter və rabitə avadanlıqları üçün ehtiyat hissələrinin satın alınması üzrə "Unisell" MMC, Azərbaycan Respublikası Mərkəzi Bankında istifadə olunan printer və surətçıxaran aparatlar üçün katriclərin və toner tozunun satın alınması üzrə "Mixtoner" MMC, Azərbaycan Respublikasının Mərkəzi Bankı üçün kompüter, printer, şəbəkə və digər ofis avadanlıqlarının satın alınması üzrə "Ultra Technologies" MMC, Azərbaycan Respublikası Mərkəzi Bankında istismarda olan Elektron xidmətlər portalının proqram platformasının dəstəklənməsi xidmətinin və Azərbaycan Respublikası Mərkəzi Bankında istismarda olan Menecment informasiya sisteminin funksional imkanlarının genişləndirilməsi və dəstəklənməsi xidmətlərinin satın alınması üzrə isə "GTSolyuşnz" MMC qalib elan edilmişdir.

Qalib təşkilatlarla müvafiq satınalma müqavilələri imzalanmışdır.

***Tender komissiyası***

«AZƏRBAYCAN»
qəzetinin reklam xidməti

**Qəzetin daim yenilənən rəsmi internet ünvanı:**
**www.azerbaijan-news.az**


**ALLAH RƏHMƏT ELƏSİN!**

Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı "Səs" qəzetinin baş redaktoru Bəhruz Quliyevə əmisi

**İDRİS QULİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Ünvan**



*AZ 1073, Bakı şəhəri,*
*Mətbuat prospekti,*
*529-cu məhəllə, IV mərtəbə*
***e-mail:***
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

**Telefonlar**

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 539-63-82, 432-37-68
Humanitar siyasət şöbəsi - 538-56-60
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

**Qeydiyyat nömrəsi 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Gündəlik qəzet*

**Tiraj 5932**
**Sifariş 1444**
**Qiyməti 40 qəpik**